## PREZİDENT İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ HƏRƏKƏTLİLİK VƏ NƏQLİYYAT ÜZRƏ BAŞ DİREKTORLUĞUNUN RƏHBƏRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul edib. AZƏRTAC xəbər verir ki, Henrik Hololey dövlətimizin başçısını ötən prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib...

Bax səh. 2

## AZƏRBAYCAN ÖZÜNÜN SƏNAYE POTENSİALINI DAHA DA GÜCLƏNDİRİR

Qabaqcıl dünya təcrübəsindən də bəlli olduğu kimi, ayrı-ayrı ölkələr məhz özlərinin sənaye potensialını davamlı şəkildə artırmaqla yüksək inkişaf səviyyəsinə çatıblar. Azərbaycan da özünün geniş imkanlarından - zəngin təbii sərvətlərindən, tarixən formalaşan ənənələrindən, insan resurslarından bəhrələnməklə yüksək sənaye inkişafına, ələlxüsus da qeyri-neft sənayesində istehsal imkanlarının genişləndirilməsinə nail olmağı hədəfləyib. Son 15 ildə Prezident İlham Əliyevin...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 20 fevral 2019-cu il, çərşənbə / № 034 (5409). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Fərid Rauf oğlu Şəfiyevin Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Fərid Rauf oğlu Şəfiyevin Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərman imzalayıb.

## Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir...

Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımının törədilməsindən 27 il ötür. Hər il olduğu kimi bu il də Azərbaycanın bütün regionlarında və xarici ölkələrdə Xocalı soyqırımı ilə bağlı tədbirlər keçiriləcək, bu qanlı terror aktı nəticəsində həyatını itirmiş insanların xatirəsi yad ediləcək. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planına əsasən Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə...

Bax səh. 6



## MİLLİ MƏCLİSİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Fevralın 19-da Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclasın gündəliyinə 27 məsələnin daxil edildiyini bildirib. Əvvəlcə, Milli Məclisin Gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilib. Daha sonra "Kitabxana işi haqqında" qanuna, Əmək və Cəzaların İcrası məcəllələrinə, "Dövlət rüsumu haqqında"...

Bax səh. 3

## "MİLLİ ŞURA" İQTİDARIN HƏYATA KEÇİRDİYİ UĞURLU SİYASƏTƏ ÖZÜNÜ "HƏMMÜƏLLİF" KİMİ GÖSTƏRMƏKLƏ SİYASİ PLAGİATİZMLƏ MƏŞĞUL OLUR

*Əli Kərimli və onun yaxın ətrafının bu cür cəhdləri uğursuzluğa məhkumdur*

İllərdir ki, öz ənənəvi çərçivəsindən çıxa bilməyən radikal müxalifət düşərgəsi hər bir uğursuzluğunun ardından absurd "manevrlər"lə diqqət mərkəzinə düşməyə, öz cılızlıqlarını ört-basdır etməyə çalışır. Bunu isə "siyasi texnologiya" kimi qavrayan radikal ünsürlər yalançı birliklər qurmaqla, pullu "mitinq tamaşaları" təşkil etməklə gündəmdə qalmaq niyyətindədirlər. Təbii ki, əsl müxalifətçilik missiyasından uzaq olan, yalnız şəxsi maraqlara və sifariş aldıqları ünvanların, antimilli mərkəzlərin direktivlərinə əsaslanan düşüncə və yanaşma tərzi ilə özünü gözə soxmağa cəhd göstərənlər köhnə "şakərlərindən" əl çəkmirlər. Hətta "təşkil etdikləri" icazəli mitinqlərdə belə yeni fikir söyləyə bilməyənlər köhnə, pafoslu yalanlarını danışmaqdan usanmırlar. Ən əsası isə, həmin mitinqə...

Bax səh. 7



## ƏLİ ƏHMƏDOV TÜRKİYƏ-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB

Fevralın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov...

Bax səh. 4

## Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi



Azərbaycanda son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı...

Bax səh. 3

## Moskvada azərbaycanlılar və çeçenlər arasında məişət zəminində baş vermiş insident iki xalqın dostluq münasibətlərinə zərər vura bilməz

Məlum olduğu kimi, ötən həftə Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında insident baş verib. Lakin Azərbaycanın və Çeçenistanın rəsmilərinin məsələyə operativ reaksiyası, həmçinin Rusiyada hər iki xalqın nümayəndələrinin bir araya gələrək, dostluq qardaşlıq mesajları verməsi məişət zəminində baş verən xırda insidentdən istifadə edərək iki xalq arasında düşmənçilik toxumu səpmək istəyənlərin...

Bax səh. 5

### Bakıda Azərbaycanla Avropa İttifaqı arasında Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun ilk iclası keçirilib



Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyin başçılıq etdiyi...

Bax səh. 4

### Avropadaxili Vergi Administrasiyaları Təşkilatı ilə Vergilər Nazirliyi Bakıda beynəlxalq forum təşkil edib




Fevralın 19-da Bakıda Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) və Vergilər Nazirliyinin birgə təşkilatçılığı ilə "Avtomatik məlumat...

Bax səh. 4

### *Musa Quliyev:* Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi



Azərbaycan Respublikası Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı...

Bax səh. 4

### *Rauf Əliyev:* Əhalinin sosial rifah halının davamlı olaraq yaxşılaşdırılması Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasi kursun mühüm tərkib hissəsidir



"Əhalinin sosial rifah halının davamlı olaraq yaxşılaşdırılması Azərbaycan Prezidentinin...

Bax səh. 6

## Prezident İlham Əliyev Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Henrik Hololey dövlətimizin başçısını ötən prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, bunu xalqın ölkədə sabitliyə və inkişafa göstərdiyi etimad kimi dəyərləndirib. Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololey bu səfəri zamanı Azərbaycanın bölgələrində olduğunu və gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd edib, ölkəmizin turizm və digər sahələrdə böyük potensiala malik olduğunu vurğulayıb. Qonaq, eyni zamanda, Bakıda səmərəli görüşlər keçirdiklərini bildirərək, Heydər Əliyev beynəlxalq aeroportunun və Azərbaycanda mülki aviasiya sisteminin texniki təchizatının yüksək səviyyədə olduğunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanda infrastrukturun yaradılması istiqamətində çox böyük layihələrin reallaşdığını vurğulayaraq, altı beynəlxalq hava limanının, beynəlxalq standartlara cavab verən avtomagistral yollarının, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası və digər işlərin həyata keçirilməsi nəticəsində ölkəmizin mühüm beynəlxalq nəqliyyat qovşağına çevrildiyini bildirib. Dövlətimizin başçısı Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb, Şimal-Qərb istiqamətlərində nəqliyyat daşımaları sahəsində mühüm rol oynayacağını qeyd edərək, perspektivlər nəzərə alınmaqla bu sahədə artıq konkret işlərin görüldüyünü deyib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasının önəmi qeyd olunub, nəqliyyat sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Prezident İlham Əliyev Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun böyük tərkibdə Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. Azərbaycan ilə Türkiyənin bu gün dünyada bir-birinə ən yaxın ölkələr olduğunu deyən Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində keçirilən görüşlərin və müxtəlif səviyyəli qarşılıqlı səfərlərin dostluğumuzun daha da möhkəmlənməsi və iş birliyi üçün yeni sahələrin müəyyən edilməsi baxımından önəmli olduğunu deyib. Keçən il Rəcəb Tayyib Ərdoğanla həm Türkiyədə, həm Azərbaycanda və eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı Türkiyə Prezidentinin iştirakı ilə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin təntənəli keçidini dostluq və qardaşlıq bayramı kimi dəyərləndirib. Prezident İlham Əliyev ötən ilin ölkələrimiz üçün eyni zamanda önəmli enerji layihələri olan TANAP-ın və "STAR" neft emalı zavodunun açılışı ilə də yadda qaldığını deyib.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırıb. O, Türkiyə-Azərbaycan əlaqələrinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edərək, xalqımızın Ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük ehtiramla xatırlayıb. Türkiyəli qonaq qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb və sürətli inkişafa nail olub. O, rəhbərlik etdiyi Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan özünün sənaye potensialını daha da gücləndirir

***Prezident İlham Əliyev:** Sənayeləşmə öz gözəl nəticələrini verir. Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox artmışdır, bu ilin birinci ayında isə 14 faizə yaxın artmışdır*

*Qabaqcıl dünya təcrübəsindən də bəlli olduğu kimi, ayrı-ayrı ölkələr məhz özlərinin sənaye potensialını davamlı şəkildə artırmaqla yüksək inkişaf səviyyəsinə çatıblar. Azərbaycan da özünün geniş imkanlarından - zəngin təbii sərvətlərindən, tarixən formalaşan ənənələrindən, insan resurslarından bəhrələnməklə yüksək sənaye inkişafına, ələlxüsus da qeyri-neft sənayesində istehsal imkanlarının genişləndirilməsinə nail olmağı hədəfləyib. Son 15 ildə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında reallaşdırılan məqsədyönlü siyasət sayəsində ölkənin sənaye xəritəsi yeni istehsalatlar hesabına daha da zənginləşib. Cari il fevralın 18-də isə respublikamızın çoxsaylı sənaye müəssisələri sırasına daha bir nəhəng istehsalat əlavə olunub. Belə ki, bəhs olunan tarixdə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodu Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.*



### "SOCAR POLYMER" KİMİ İRİ LAYİHƏLƏR AZƏRBAYCANDA SƏNAYELƏŞMƏ SİYASƏTİNİN UĞURLA HƏYATA KEÇİRİLDİYİNİ TƏSDİQLƏYİR

Ümumiyyətlə, son 15 ildə ölkəmizdə sənaye inkişafının həm siyasi, həm də maddi cəhətdən dəstəklənməsi öz müsbət nəticələrini verir. Hazırda sənaye sektoru milli iqtisadiyyatımızın aparıcı istiqamətlərindən biri qismində çıxış edir. Xüsusilə ölkəmizdə qeyri-neft sənayesinin üstün inkişafının təmin edilməsi məmnunluq doğurur. Yeri gəlmişkən, son illərdə bir sıra mühüm pozisiyalar üzrə daxili tələbat sırf yerli müəssisələrdə buraxılan yüksəkkeyfiyyətli məhsullar hesabına təmin edilir ki, bu da daha çox həcmdə valyutanın xaricə axınının qarşısının alınması deməkdir. Bütövlükdə, son illərdə ölkədə metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və Azərbaycan üçün ənənəvi olan digər sənaye sahələri genişlənib, həmçinin yeni sənaye sahələri də formalaşıb.

Əlamətdar haldır ki, artıq respublikamızın sənaye xəritəsi regionlara doğru genişlənir. 2018-ci ildə ölkə ərasizində sənaye məhəllələrinin yaradılması prosesi davam etdirilib. Qeyd edək ki, ilk sənaye məhəlləsi 2017-ci ildə Neftçalada istifadəyə verilib. Ötən il istifadəyə verilən Masallı Sənaye Məhəlləsində hazırda 10 müəssisə fəaliyyət göstərir. Sənaye Məhəlləsinə sahibkarlar tərəfindən 5,3 milyon manat investisiya yatırılıb. Hacıqabul Sənaye Məhəlləsində tikinti-quraşdırma işləri başa çatdırılıb, Sabirabad Sənaye Məhəlləsində isə tikinti işləri davam etdirilir. Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışından sonra müəssisənin kollektivi ilə görüşündə respublikamızda aparılan sənayeləşmə siyasətinin yaxşı nəticələr verməsindən məmnunluğunu bildirərək deyib: **"Bundan sonra da Azərbaycanın sənaye potensialı inkişaf edəcək. Sənayeləşmə öz gözəl nəticələrini verir. Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox artmışdır, bu ilin birinci ayında isə 14 faizə yaxın artmışdır, o cümlədən bu zavodların fəaliyyətə başlaması nəticəsində. Əlbəttə ki, bundan sonra da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, müasir zavodların, fabriklərin yaradılması prioritet olaraq qalacaqdır".**

O cümlədən "SOCAR Polymer" kimi iri layihələr Azərbaycanda sənayeləşmə siyasətinin uğurla həyata keçirildiyini təsdiqləyir. Xatırladaq ki, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən ilk müəssisə - polipropilen zavodu 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizdə səfərdə olan İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə istifadəyə verilib. Haqqında bəhs olunan layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. "SOCAR Polymer" zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək. Artıq Türkiyə, Rusiya, Belarus və Ukraynadan sifarişlər qəbul edilib. Zavodda "Made in Azerbaijan" brendi ilə istehsal olunan polipropilen qatarla sifariş olunan ölkələrə yola salınıb.

Dünyadakı oxşarları ilə müqayisədə müasirliyi ilə diqqəti çəkən "SOCAR Polymer" zavodlarının təməli 2015-ci il oktyabrın 25-də Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Layihəsinin reallaşdırılmasına həm daxili, həm də xarici mənbələrdən investisiyalar yönəldilib. Müəssisəyə cəlb olunan investisiyaların 60 faizi Rusiyanın "Gazprombank", qalan hissəsi isə müvafiq olaraq "SOCAR", "Vitol", "Paşa Holdinq", "Gilan Holdinq" və "Azərsun Holdinq" tərəfindən təmin edilib. Prezident İlham Əliyev "SOCAR Polymer" müəssisələrinin tam gücü ilə fəaliyyətə başlamasını əlamətdar hadisə kimi səciyyələndirib. **"SOCAR Polymer" tam gücü ilə işə başlayır. Bu, çox əlamətdar hadisədir. Bu, ölkəmizin inkişafını göstərir. Bu, ölkəmizə xarici maliyyə qurumları tərəfindən inamın təzahürüdür. Çünki bildiyiniz kimi, bu zavodun tikintisində xarici banklar fəal iştirak ediblər. Bu, bütövlükdə ölkəmizdə gedən sənayeləşmə siyasətinin gözəl nəticəsidir",** - deyə dövlət başçısı vurğulayıb.

### SUMQAYIT KİMYA SƏNAYE PARKINDA 2019-CU İLİN SONUNADƏK DAHA BİR NEÇƏ MÜƏSSİSƏNİN İSTİFADƏYƏ VERİLMƏSİ NƏZƏRDƏ TUTULUB

Hazırda ölkəmizdə eyni vaxtda bir neçə sənaye parkı yaradılır. İqtisadiyyat Nazirliyindən verilən məlumata əsasən, artıq Azərbaycanda kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları fəaliyyət göstərir. Sənaye parklarında fəaliyyət göstərən müəssisələrdə tanker və gəmilər, elektron təhsil avadanlıqları, metal konstruksiyalar, maşınqayırma avadanlıqları, polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar, polipropilen, pestisidlər, müxtəlif növ sürtgü yağları, xortumlar və fitinqlər, kabellər, polimer məmulatlar, texniki qazlar, aliminium və plastik profillər, pambıq iplikləri və s. istehsal edilir.

Bütövlükdə, ölkədə yaradılan sənaye parklarının ümumi investisiya portfelinin həcmi 3,8 milyard ABŞ dolları təşkil edir. İndiyədək sənaye parklarına 2,9 milyard ABŞ dolları həcmində investisiya qoyulub. Təkcə 2018-ci ildə rezidentlər tərəfindən 450 milyon ABŞ dolları sərmayə yatırılıb. Sənaye parklarında 40, o cümlədən 2018-ci ildə 11 rezident qeydiyyata alınıb. Bu rezidentlərin 21-i artıq istehsal fəaliyyətinə başlayıb. Növbəti mərhələdə sənaye parklarına daha 1 milyard ABŞ dollarınadək investisiya qoyuluşu gözlənilir.

Ölkəmizdə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı əsasında təşkil olunan Sumqayıt Kimya Sənaye Parkı respublikamızda yaradılan ilk və ən böyük sənaye parkıdır. Parkın 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 75 faiz məskunlaşma qeydə alınıb. Burada qeydə alınan rezidentlərin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır ki, bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb.

Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" MMC-nin polipropilen zavodu ilə yanaşı, bir sıra digər istehsalatlar, o cümlədən inşaat kimyəviləri zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, əlvan metallar və ferroərintilər zavodu açılıb. Bundan başqa, 2018-ci ildə parkın ərazisində elektron təhsil avadanlıqları, şüşə və saxsı məmulatların istehsalı müəssisələri fəaliyyətə başlayıb. Sənaye Parkının ərazisində yeni məssisələrin istifadəyə verilməsi cari ildə də davam etdirilir. 2019-cu ilin yanvarında burada "SOCAR karbamid" zavodu istifadəyə verilib. "SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. "SOCAR karbamid" zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur.

Hazırda Sumqayıt Kimya Sənaye Parkının ərazisində yeni istehsalatların yaradılması istiqamətində işlər uğurla davam etdirilir. 2019-cu ilin sonunadək burada daha bir neçə müəssisənin istifadəyə verilməsi nəzərdə tutulub. Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının üstünlüklərini nəzərə çatdıraraq bildirib: **"Sumqayıt Kimya Sənaye Parkının ərazisi 500 hektardan çoxdur və bu ərazidə bütün kommunikasiyalar, infrastruktur layihələri icra edildi ki, burada müasir sənaye mərkəzi yaradılsın. Biz buna nail ola bilmişik. Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir çox müəssisələr fəaliyyət göstərir və onların arasında "SOCAR Polymer"in əlbəttə ki, xüsusi yeri vardır".**

### YENİ MÜƏSSİSƏLƏR YARADILARKƏN İŞ YERLƏRİNİN AÇILMASI QARŞIYA QOYULAN ƏSAS MƏQSƏDLƏRDƏN BİRİDİR

Sosial dövlət olan Azərbaycanda fəal məşğul əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev ölkədəki müsbət demoqrafik vəziyyətə adekvat olaraq qarşıya yeni iş yerlərinin yaradılmasını daimi prosesə çevirməklə bağlı mühüm vəzifə qoyub. Dövlət başçısının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq paytaxt Bakıda olduğu kimi, bölgələrdə də iqtisadi aktivlik təmin olunur və son nəticədə bütün respublika üzrə insanların məşğulluq imkanları getdikcə genişlənir. Son 15 ildə respublika üzrə 1,9 milyon yeni iş yeri açılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkədə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab olunur. Təsadüfi deyil ki, Azərbaycanın əmək bazarının təkmilləşdirilməsi və əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində qazandığı uğurlar beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətə layiq görülür. Məsələn, nüfuzlu Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşan Azərbaycanın, eyni zamanda, əmək bazarının səmərəliliyi indikatoru üzrə mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ölkəmiz bu kateqoriya üzrə 9 pillə irəliləyərək 17-ci yerə yüksəlib.

Ölkədə reallaşdırılan uğurlu sənayeləşdirmə siyasəti paytaxt Bakıda və bölgələrdə fəal məşğul əhalinin əmək bazarına inteqrasiyasında xüsusi rol oynayır. Yeni yaradılan iri sənaye müəssisələrinin əmək tutumu kifayət qədər genişdir və belə istehsalatlarda daha çox sayda insan iş yerləri ilə təmin olunur. Prezident İlham Əliyev vurğulayıb ki, bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır.

İndiyədək sənaye parklarının tikintisində və istehsalatda 10 minə yaxın iş yeri yaradılıb, növbəti mərhələdə isə sənaye parklarında daha 7 minədək yeni iş yerinin açılması planlaşdırılıb. Cari ildə istifadəyə verilən "SOCAR karbamid" zavodunda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb. Hazırda Balaxanı Sənaye Parkındakı müəssisələrdə 400-ə yaxın işçi çalışır. Burada yeni layihələrin reallaşdırılması hesabına işçilərin sayının 650-yə çatdırılması nəzərdə tutulur. Mingəçevir Sənaye Parkında ötən il istifadəyə verilən iki müəssisəsində 750 iş yeri açılıb. Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında fəaliyyət göstərən Bakı Gəmiqayırma Zavodunda 2 min nəfər işlə təmin olunub. İndiyədək regionlarda istifadəyə verilən Neftçala və Masallı sənaye məhəllələrində ümumilikdə 700-dək iş yeri yaradılıb. Digər 2 sənaye məhəlləsinin istifadəyə verilməsi ilə sənaye məhəllələrində açılan iş yerlərinin sayı 1800-ə çatacaq. Son illərdə Prezident İlham Əliyevin tapşırığına əsasən respublikanın regionlarında xalçaçılıq müəssisələrinin yaradılması geniş vüsət alıb. İndiyədək 20 rayonda xalça fabriki açılıb. Bu il daha 11 xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulub. Regionlarda yaradılan xalça fabrikləri əmək qabiliyyətli insanların, ələlxüsus da qadınların məşğulluğunun təmin olunmasında mühüm rol oynayır.

**Mübariz ABDULLAYEV**

# Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi

*Dövlət başçısı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərman imzalayıb*

Azərbaycanda son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib. Milli maraqlara əsaslanan uğurlu siyasətin həyata keçirilməsi, müasir çağırışlara uyğun yeni nəsil islahatların ardıcıl olaraq reallaşdırılması bütövlükdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirib, ölkəmiz qarşısında yeni perspektivlər açıb. Ötən zaman müddətində həyata keçirilən iqtisadi islahatlara paralel olaraq makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti yaradılıb, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Digər tərəfdən, milli inkişafın Azərbaycan modelinin formalaşdırılması və səmərəli iqtisadi siyasət sayəsində hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi islahatların mütəmadi qaydada həyata keçirilməsi, həmçinin digər bu kimi tədbirlər müxtəlif sahələrdə dayanıqlı inkişaf üçün etibarlı zəmin yaratmaqla yanaşı, perspektiv tərəqqinin əsaslarını formalaşdırıb. 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında rekord göstərici 3,3 dəfə olmaqla məhz Azərbaycanda qeydə alınıb. Bəhs olunan dövrdə respublikamıza 250 milyard dollar sərmayə yönəldilib, ölkəmizin sənaye potensialı 2,6 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentlikləri Azərbaycan iqtisadiyyatının inkişaf tempinə dair müsbət proqnozlar verirlər. Ekspertlərin qənaətincə, nüfuzlu reytinq agentliklərinin Azərbaycanın inkişafı ilə bağlı pozitiv dəyərləndirmələri ölkəmizdə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir. Bir sözlə, bu gün ölkəmizin inkişaf modeli mütərəqqi nümunə kimi səciyyələndirilir.

Bunlarla yanaşı, ötən müddət ərzində ölkəmizdə həmçinin uğurlu sosial siyasət həyata keçirilib, əhalinin sosial müdafiəsi gücləndirilib, insanların rifahı daha da yaxşılaşıb. Son 15 ildə ölkəmizdə əməkhaqları 7 dəfə, eləcə də minimum əməkhaqları 6,5 dəfə artırılıb. Ümumiyyətlə, Azərbaycan sosial dövlətdir və daxili siyasət kursunun mühüm istiqamətlərindən birini məhz sosial siyasət təşkil edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlətimizin başçısının sosial dövlət fəlsəfəsinin



əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Azərbaycanda sürətli inkişaf, təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Əlbəttə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin uğurla həyata keçirilməsinə zəmin yaradıb. Azərbaycanın davamlı inkişafından, iqtisadi potensialın mütəmadi surətdə genişlənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. Bir sözlə, ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı və mənafeyi dayanır.

Bütövlükdə, Azərbaycanda həyata keçirilən sosial siyasətin səciyyəvi xüsusiyyəti əhalinin bütün təbəqəsinin yüksək diqqət və qayğı ilə əhatə olunmasıdır. Bu məqamda vurğulamaq yerinə düşər ki, ölkəmizdə vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edən məqsədyönlü və sistemli tədbirlərin həyata keçirilməsi də böyük sosial əhəmiyyətə malikdir. Yeri gəlmişkən, Prezident İlham Əliyev fevralın 19-da "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərman imzalayıb. Fərman istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycan Respublikasının sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədilə imzalanıb. Fərmanda 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına icazə verilməsi qaydaları müəyyənləşdirilir. Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikasında əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən inşaat sektorunda əhəmiyyətli inkişaf müşahidə olunur, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsi çoxmənzilli yaşayış binalarının tikintisinə yönəldilir. Bununla belə, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb ki, bu da, öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib.

Beləliklə, Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi. Bu, birmənalı olaraq sənədsiz binalarla bağlı inqilabi qərar kimi səciyyələndirilir. Azərbaycanda sənədsiz və qeydiyyatsız bina qalmayacaq, mənzil sahibləri bir daha sənəd problemi ilə üzləşməyəcəklər. Heç şübhəsiz ki, bu, vətəndaşlara yüksək diqqət və qayğının daha bir nümunəsidir. Ekspertlərin qənaətincə, bu Fərmanın imzalanması əhalinin yaşayış səviyyəsinin daha da yüksəldilməsi istiqamətində atılan növbəti uğurlu addımdır. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycanda həyata keçirilən siyasət ölkəmizin davamlı inkişafını təmin etməklə yanaşı, vətəndaşların rifah halının daha da yaxşılaşmasına xidmət edir, bütün sosial məsələlər uğurla öz həllini tapır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Milli Məclisin növbəti iclası keçirilib

*İclasda 27 məsələ müzakirə olunaraq qəbul edilib*



***Oqtay Əsədov:***
*Həyata keçirilən tədbirlər vətəndaşların maraqlarına xidmət edir*

Fevralın 19-da Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclasın gündəliyinə 27 məsələnin daxil edildiyini bildirib. Əvvəlcə, Milli Məclisin Gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilib.

Daha sonra "Kitabxana işi haqqında" qanuna, Əmək və Cəzaların İcrası məcəllələrinə, "Dövlət rüsumu haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Patent haqqında" qanunlara dəyişikliklər (üçüncü oxunuş) qəbul olunub. Həmçinin "Azərbaycan Respublikasının Dövlət Gerbinin istifadəsi qaydaları haqqında", "Azərbaycan Respublikasının Dövlət Himninin istifadəsi qaydaları haqqında" qanunlar və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" qanuna dəyişikliklər də üçüncü oxunuşda qəbul edilib.

"Əmanətlərin tam sığortalanması haqqında" qanuna dəyişikliklər barəsində isə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib. Z.Səmədzadə bildirib ki, sənəd adıçəkilən qanunun qüvvəsinin (əmanətlərin tam sığortalanmasının) daha bir il müddətinə uzadılmasını nəzərdə tutur. Qanun 2016-cı il martın 4-dən qüvvədədir və onun qüvvədə olma müddəti 2019-cu il martın 4-də bitirdi. Qanunun qüvvəsinin daha bir il uzadılması bank sektorunun dəstəklənməsinə, bu sahədə dövlətin üzərinə ciddi öhdəliklər götürməsinə, nəticədə isə əhalinin banklara depozit qoymasının stimullaşdırılmasına xidmət edəcək.

Spiker Oqtay Əsədov bildirib ki, bu dəyişiklik böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bütövlükdə, həyata keçirilən tədbirlər vətəndaşların maraqlarına xidmət edir.

Müzakirələrdən sonra qanun layihəsi qəbul olunub.

Daha sonra "Əmək pensiyaları haqqında" dəyişikliklər məsələsi müzakirəyə çıxarılıb. Bu barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verib. H.Rəcəbli bildirib ki, qanuna təklif edilən dəyişikliyə əsasən, əmək pensiyasının minimum məbləği 2019-cu il 1 mart tarixindən 160 manat məbləğində müəyyən olunur. O qeyd edib ki, qanunun 6-1-ci maddənin mətninin yeni redaksiyasında deyilir: **"Bu Qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2019-cu il 1 mart tarixindən 160 manat məbləğində müəyyən olunur. Bu Qanuna uyğun olaraq təyin edilmiş əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir".**



***Siyavuş Novruzov:***
*Görülən işləri kiminsə öz adına çıxması yolverilməzdir*

Komitə sədri deyib ki, hazırda minimum pensiyanın məbləği 116 manatdır və hazırkı artım pensiyaçıların rifahının daha da yaxşılaşmasına müsbət təsir göstərəcək.

Müzakirələr zamanı çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Prezident İlham Əliyev vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində davamlı olaraq tədbirlər həyata keçirir. Onun sözlərinə görə, Prezident İlham Əliyev dövlət başçısı seçildiyi ilk günlərdən müxtəlif sahələrin inkişafı üçün proqramlar qəbul edib: **"Bəzi insanlar isə ölkə başçısı tərəfindən həyata keçirilən tədbirləri, atılan addımları öz adlarına yazmağa çalışırlar. Əslində həmin şəxslər xalqı aldatmağa çalışırlar. Bu, onların naşılığıdır. Hansı ki, həmin insanlar vaxtilə hakimiyyətdə olanda büdcəni talamaqla məşğul idilər".**



S.Novruzov söyləyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində yerlərdə yeni iş yerləri açılır, çox böyük proqramlar, vergi, gömrük və s. sahələrdə islahatlar həyata keçirilir: **"Vətəndaşlar atılan bu addımları müsbət qarşılayırlar. Bu addımlar kiminsə yürüş, mitinq keçirməsinin nəticəsi deyil. Həmin şəxslər, əksinə, bu layihələrin həyata keçirilməsini istəmirlər. Görülən işləri kiminsə öz adına çıxması yolverilməzdir".**

Çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımlar AHİK tərəfindən də yüksək qiymətləndirilir. **"Bəzi müxalifət nümayəndələri isə Prezident İlham Əliyevin gördüyü işlərə kölgə salmağa cəhd edirlər"**, - deyən S.Möhbalıyev qeyd edib ki, həmin şəxslər sosial şəbəkələrdə təhqirlər səsləndirirlər: **"Bu insanlar Azərbaycan xalqının nümayəndəsi ola bilməzlər. Düşünmürəm ki, bir azərbaycanlı digər azərbaycanlı haqqında belə fikirlər səsləndirsin".**

Millət vəkili söyləyib ki, ölkə başçısının fəaliyyəti nəticəsində hər il yüz minlərlə iş yerləri yaradılır: **"Gərək biz həmin şəxslərin cavablarını verək, görülən işlərin təbliğatını aparaq. Biz ölkə rəhbərliyinin apardığı siyasəti dəstəkləyirik".**



***Hadi Rəcəbli:***
*Minimum pensiyanın məbləğinin artırılması pensiyaçıların rifahının daha da yaxşılaşmasına müsbət təsir göstərəcək*

İclasda həmçinin millət vəkilləri Azər Badamov, Sədaqət Vəliyeva, Aydın Mirzəzadə, Tahir Mirkişili və Sahib Alıyev çıxış edərək minimum pensiyanın məbləğinin artırılmasının vətəndaşların rifah halının yüksəlməsinə xidmət etdiyini bildiriblər. Çıxışlarda həmçinin bəzi dairələrin antimilli fəaliyyəti kəskin pislənilib.

Müzakirələrdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi qəbul olunub.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov isə "Üzümçülük və şərabçılıq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Daha sonra "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib.

Milli Məclis sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov isə "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni ikinci oxunuşda müzakirəyə təqdim edib. Qeyd edilib ki, dəyişikliklər vəkillik fəaliyyətinin təkmilləşdirilməsi məqsədini daşıyır. Əli Hüseynli həmçinin İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edib.

İclasda "Reklam haqqında" qanuna ikinci oxunuşda dəyişikliklər edilməsi barədə qanun layihəsi də müzakirə olunub. Qeyd olunub ki, təklif edilən dəyişikliklər reklam qurğularının tikintisinə, quraşdırılmasına və konstruktiv dəyişikliklərin edilməsinə icazənin verilməsi prosedurunun sadələşdirilməsi qaydalarını müəyyən edir.



***Ziyad Səmədzadə:***
*Qanunun qüvvəsinin daha bir il uzadılması bank sektorunun dəstəklənməsinə, əhalinin banklara depozit qoymasının stimullaşdırılmasına xidmət edəcək*

Parlamentin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev "Gənclər siyasəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Müzakirələrdən sonra qanun layihəsi qəbul olunub.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim olunub.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edən komitə sədri Əli Hüseynli bildirib ki, dəyişikliklər "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli Qanununun icrası ilə əlaqədar təklif edilir.

İclasda Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda müzakirə edilib.

Komitə sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirəyə təqdim edib. Bildirib ki, qanun layihəsi dəqiqləşdirmə xarakterli düzəlişləri nəzərdə tutur.

Həmçinin Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri birinci oxunuşda müzakirə olunub.

Ziyad Səmədzadə "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edərək deyib ki, qanun layihəsi telekommunikasiya operatoru (mülkiyyətində olan telekommunikasiya şəbəkəsi vasitəsilə qanuni əsaslarla telekommunikasiya xidmətləri göstərən hüquqi və fiziki şəxs) üçün yeni vəzifələrin müəyyən edilməsini nəzərdə tutur.

Parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Ümumi təhsil haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, sənəd 5 fəsil, 33 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Bununla da iclasın gündəliyində olan bütün məsələlər müzakirə olunaraq qəbul edilib.

**Nardar BAYRAMLI**

# Əli Əhmədov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

## *Əli Əhmədov: Azərbaycanla Türkiyənin dostluğu və qardaşlığı sarsılmazdır*





Fevralın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Əli Əhmədov iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin əhəmiyyətinə toxunan YAP Sədrinin müavini bu əlaqələrin Ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında inkişaf etdiyini vurğulayıb.

**"Türkiyə Azərbaycan vətəndaşlarının ən çox səfər etdiyi ölkədir. Türkiyədən gələn hər bir qonaq Azərbaycan üçün əzizdir. Eyni hissləri biz Türkiyəyə gedəndə yaşayırıq"**, - deyən Əli Əhmədov bildirib ki, Türkiyə daim inkişaf edir, güclənir və nəinki regionun, bütövlükdə dünyanın çox güclü



dövlətlərindən birinə çevrilib. **"Yerləşdiyi regionda narahatlıqlar olsa da, Türkiyə öz əhalisinin sabit durumda yaşamasını təmin edir. Türkiyənin inkişaf etməsi və güclənməsi bizi çox sevindirir və qürurlandırır. Çünki biz bir millətin iki dövlətiyik. Eyni zamanda, bu gün Azərbaycan da dinamik inkişaf edir. Son 15 ildə Azərbaycan möhtəşəm nailiyyətlərə imza atıb. Ölkəmiz bütün sahələr üzrə mühüm nailiyyətlər qazanıb, müasirləşib, yeniləşib, eləcə də regionun liderinə çevrilib"**, - deyən Baş nazirin müavini qeyd edib ki, Azərbaycanla Türkiyənin həyata keçirdiyi birgə iqtisadi, enerji layihələri hər iki qardaş dövlətin gücünü daha da artırır. Onun fikrincə, münasibətlərin inkişafında hər iki ölkənin liderinin xüsusi rolu var.

Azərbaycanla Türkiyənin beynəlxalq müstəvidə də bir-birinə hər zaman ciddi dəstək verdiyini deyən Əli Əhmədov bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli prosesində Türkiyə Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyir və bu mövqe xalqımız tərəfindən yüksək qiymətləndirilir. Onun fikrincə, qarşımızda duran əsas vəzifələrimizdən biri iki ölkə arasında mövcud münasibətləri daha da inkişaf etdirərək xalqlarımızı bundan sonra da irəli aparmaqdır. YAP Sədrinin müavini Türkiyədə qarşıdan gələn bələdiyyə seçkilərinin də yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib.

Əli Əhmədov deyib ki, Azərbaycanla Türkiyənin dostluğu və qardaşlığı sarsılmazdır və bunu heç bir qüvvə poza bilməz.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycana səfər etməkdən məmnunluğunu bildirib. O qeyd edib ki, Türkiyə və Azərbaycanın münasibətləri möhkəm təməllərə əsaslanır. Şamil Ayrım Azərbaycanın uğurlarının Türkiyədə böyük sevinclə qarşılandığını deyib. O, hər iki ölkənin inkişafının əhəmiyyətini vurğulayaraq xalqlarımız üçün böyük faydasını diqqətə çatdırıb. Nümayəndə



heyətinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü deyən dostluq qrupunun rəhbəri qeyd edib ki, ölkələrimizin liderləri qarşılıqlı əlaqələrin daha da inkişafına böyük önəm verirlər. O, Türkiyə və Azərbaycan parlamentləri arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində işlərin davam etdirildiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Azərbaycan-Türkiyə Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitsinin sərd müavini Ağalar Vəliyev, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Məlahət İbrahimqızı, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev və Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Konya deputatı, Dostluq qrupunun rəhbərinin müavini Orhan Erdem, Ərzurum deputatı, qrupun üzvü İbrahim Aydemir, Qars deputatı, qrupun üzvü Yunus Kılıç, İstanbul deputatı, qrupun üzvü Tunay Kaynarca, Qaziantep deputatı, qrupun üzvü Mehmet Erdoğan, Iğdır deputatı, qrupun üzvü Yaşar Karadağ və TBMM əməkdaşı Türkey Yener iştirak ediblər.

**Nardar BAYRAMLI**

# Bakıda Azərbaycanla Avropa İttifaqı arasında Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun ilk iclası keçirilib





Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikası və Avropa İttifaqı (Aİ) arasında Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda ayrı-ayrı dövlət qurumlarının rəhbər şəxsləri, Avropa İttifaqının nümayəndələri, səfirlər və bank sektorunun təmsilçiləri iştirak edib.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində beynəlxalq nəqliyyat sisteminə inteqrasiya, infrastrukturun inkişafı, davamlı maliyyələşmə, xidmətlərin keyfiyyətinin artırılması, nəqliyyatdan istifadənin asanlaşdırılması və sosial rifahın yüksəldilməsi təmin edilir: **"Ölkəmiz Qafqaz regionundan keçən Avrasiya nəqliyyat bağlantılarının inkişafı üzrə bir sıra layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. 2017-ci il oktyabrın 30-da istismara verilmiş Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti bölgə üçün strateji əhəmiyyət kəsb edir, Avropa və Asiyanın dəmir yolu şəbəkələrinin region üzərindən ən qısa birləşməsini təmin edir. Eynilə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bölgədə ən əhəmiyyətli tranzit nöqtəsi olaraq, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə yük və sərnişindaşımalarının həyata keçirilməsində əsas rol oynayacaq"**.

Nazir qeyd edib ki, hazırda ölkəmizdə avtomobil yolları infrastrukturunun inkişafı və müasir yol şəbəkəsinin yaradılması ilə bağlı irimiqyaslı layihələr həyata keçirilir.

R.Quluzadə Xəzər regionunda multimodal daşımaların geniş tətbiqi, dəniz daşımalarının tezləşdirilməsi və həcminin artırılması üçün yeni bərələr, tankerlərin alınaraq istifadəyə verildiyini də vurğulayıb.

**"Dəniz və quru nəqliyyatı ilə yanaşı, mülki aviasiya sektorunun inkişafı da bizim üçün prioritet istiqamətlərdən biridir. Bu məqsədlə son illərdə bir çox işlər görülüb. "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) təyyarə parkı yeni və müasir təyyarələrlə tam yenilənib. Hazırda AZAL-ın təyyarələri Avropa, MDB məkanı, Amerika və bir sıra Asiya ölkələrinə mütəmadi uçuşlar həyata keçirir. Gələcəkdə uçuş istiqamətlərinin sayının artırılması və ölkəmizin bu sahədə tranzit potensialının tam istifadə edilməsi istiqamətində müvafiq tədbirlər görülür"**, - deyə nazir bildirib.

R.Quluzadə ölkəmizin tranzit potensialının artırılması məqsədilə beynəlxalq əməkdaşlığın, o cümlədən, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Azərbaycanda yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət ayrıldığını bildirən nazir ölkə başçısının Sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın qəbul olunduğunu xatırladıb: **"Düşünürəm ki, proqramda müəyyən olunmuş vəzifələrin icrası üzrə Avropa İttifaqının təcrübəsindən faydalanmaq məqsədilə bu istiqamətdə daha intensiv əməkdaşlıq aparılacaq. Ümidvaram ki, əməkdaşlığımızın genişlənməsi Avropa İttifaqı ilə Azərbaycan arasında yük və sərnişinlərin maneəsiz, sürətli və təhlükəsiz daşınması, eləcə də iqtisadi əməkdaşlıq və ticarətin inkişafı üçün şərait yaradacaq"**.

Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri H.Hololey Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun keçirilməsinin üstünlüklərindən danışıb. O qeyd edib ki, tərəfdaşlarla bu cür dialoqların keçirilməsi məsələsi əvvəlcədən diqqətlə təhlil edilir: **"Bu, Avropa İttifaqı səviyyəsində keçirilən yeddinci belə dialoqdur. Biz bu cür yüksək səviyyəli tədbirləri əməkdaşlığa olduqca maraq göstərən tərəflərlə keçiririk. Bu gün nəqliyyat sahəsində bir çox seqmentlər üzrə müzakirələr aparılacaq ki, bu da birgə əməkdaşlığın yeni üfüqlərini və istiqamətlərini müəyyən edəcək"**.

H.Hololey yüksək səviyyəli dialoq çərçivəsində gələcək əməkdaşlıq aspektlərinin də nəzərdən keçiriləcəyini diqqətə çatdırıb.

Tədbirdə aviasiya, dəniz və yol təhlükəsizliyi, Nəqliyyat İnvestisiya Planı, Avropa-Asiya Bağlantılar Strategiyası, rəqəmsal taxoqraflar, Vahid Aviasiya Məkanı üzrə Saziş layihəsi müzakirə olunub. Bundan başqa, Avropa İttifaqı ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıq üzrə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Avropadaxili Vergi Administrasiyaları Təşkilatı ilə Vergilər Nazirliyi Bakıda beynəlxalq forum təşkil edib






Fevralın 19-da Bakıda Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) və Vergilər Nazirliyinin birgə təşkilatçılığı ilə "Avtomatik məlumat mübadiləsindən əldə olunan məlumatlardan istifadə" mövzusunda forum öz işinə başlayıb.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, tədbirdə IOTA-ya üzv olan 29 ölkənin nümayəndəsi iştirak edir. Forumun təşkilində məqsəd Avtomatik Məlumat Mübadiləsi, Ümumi Hesabatlılıq Standartı və Xarici Hesablar üzrə mütəxəssisləri bir araya gətirməklə Vergi Əməletməsi Aktı vasitəsilə əldə edilən məlumatlardan səmərəli istifadə sahəsində üzv ölkələrə köməklik göstərməkdən ibarətdir.

Vergilər naziri Mikayıl Cabbarov forumda çıxış edərək bildirib ki, Azərbaycanın vergi administrasiyası vergi inzibatçılığı sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, bu sahədə beynəlxalq təşkilatların və digər dövlətlərin vergi orqanları ilə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir.

Vergilər Nazirliyinin 2002-ci ildən etibarən IOTA-ya tam hüquqlu üzv olduğunu qeyd edən nazir bu təşkilatın vergi sistemini qabaqcıl təcrübələr əsasında inkişaf etdirmək üçün vacib platforma rolu oynadığını vurğulayıb.

IOTA-nın baş katibi Miqel Silva Pinto beynəlxalq forum və onun təsis edilməsində məqsəd, IOTA-nın fəaliyyəti və ölkəmizlə əlaqələri barədə tədbir iştirakçılarına məlumat verib.

Forumun gündəliyi və müzakirə ediləcək məsələlər iştirakçıların diqqətinə çatdırılıb. Forum işini sessiyalarda davam etdirib. Vergilər Nazirliyinin, həmçinin iştirakçı dövlətlərin vergi administrasiyalarının nümayəndələri təqdimatlarla çıxış ediblər.

IOTA-nın Katibliyinin nümayəndələri forumun 2018-2019-cu illər üzrə mandatı barədə, üzv ölkələrin nümayəndələri isə Ümumi Hesabatlılıq Standartı vasitəsilə əldə edilən məlumatlardan səmərəli istifadənin perspektivləri barədə çıxış ediblər. Forum fevralın 21-dək davam edəcək.

# Musa Quliyev: Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi



Azərbaycan Respublikası Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı vətəndaşlarımızın mənzil və yaşayış şəraitinin yaxşılaşmasına o, cümlədən sosial rifahının inkişafına təsir edəcək. Fərmandan da göründüyü kimi, uzun müddətdir vətəndaşların mənzillərin sənədləşdirilməsində üzləşdikləri problem aradan qaldırılacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.

Deputat qeyd edib ki, bəzi çoxmənzilli binaların sakinləri kommunal xidmətlərdən istifadədə çətinliklərlə üzləşirdilər. Prezidentin imzaladığı Fərman əsasında vətəndaşlar qaz, su, işıq problemindən tam azad olacaqlar. Fərmanda müvafiq dövlət qurumlarına tapşırıqlar verilib. Heç bir əngəl olmadan bəzi çoxmənzilli binaların sənədləşdirilməsi işi həyata keçiriləcək. Vətəndaşların vaxt itkisi ilə üzləşməməsi üçün sənədlərin hazırlanması prosesi elektron qaydada aparılacaq. Bununla da Prezident İlham Əliyev daha bir "çoxillik həllolunmaz problem"ə son qoydu. Dövlətimizin başçısı növbəti dəfə on minlərlə ailəni sevindirdi.

Vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılmasının daim Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu deyən deputat əlavə edib ki, məcburi köçkünlər, şəhid ailələri və əlillər üçün on minlərlə mənzillər tikilib istismara verilib. Bundan başqa, sosial evlər layihəsi uğurla həyata keçirilir ki, bu da xeyli sayda gənc ailənin mənzil sahibi olmasına yol açır. Prezidentin bugünkü Fərmanı olduqca böyük əhəmiyyətə malikdir. Bu, inqilabi bir qərardır.

# "Əldə edilən uğurlar müxalif düşərgəni qıcıqlandırır"



**"Hər bir cəmiyyətin siyasi sistemi onun maraqlarını təmin etmək üçün funksional və institusional qurumlar yaratmaqla bunu milli məqsədlərə nail olmanın mexanizmi kimi müəyyənləşdirir. Beləliklə, dövlət dediyimiz sosial təsisat siyasi sistem tərəfindən idarə olunan xüsusi aparata çevrilir. Bu prosesə cəmiyyəti təşkil edən ən müxtəlif siyasi və ideoloji dünyagörüşün daşıyıcılarının cəlb edilməsi də əslində cəmiyyətin hər bir üzvünü prosesin iştirakçısına çevirməklə onun potensialından milli maraqların həyata keçirilməsində istifadə etmək məqsədi daşıyır".** Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, ancaq hazırkı mürəkkəb tarixi mərhələdə milli dövlətlərin öz maraqlarını müdafiə etməsi çoxsaylı təhdidlərlə üzləşir və hər gün bir az daha çətinləşir: **"Çünki tarixin amansız mübarizəsində hər xalq öz maraqlarını qorumalıdır və bu da gərgin rəqabət kontekstində baş tutur. Ona görə də qlobal aktorlar milli dövləti uzun və yorucu rəqabətdə taqətdən salmaq üçün onun öz daxili enerjisindən özünə qarşı istifadə edirlər. Məsələn, ölkədaxili müxalifəti iqtidara qarşı qoymaqla hakimiyyəti zəiflədir və bunu öz maraqlarını təmin etmək üçün bir alətə çevirirlər. Azərbaycanın həyata keçirdiyi müstəqil siyasət və aparılan islahatlar ölkəmizi daha da güclü etdiyi üçün bu, rəqiblərimizi ciddi şəkildə narahat edir. Son aylarda müxalifətin fəallaşması da məhz bu kontekstdə nəzərdən keçirilməli olan hadisədir. Əslində sağlam məntiq onu tələb edir ki, ölkənin inkişafı müxalifəti məmnun etsin, ancaq bizdə isə bunun tərsi baş verir. Əldə edilən uğurlar müxalif düşərgəni qıcıqlandırır.**

**Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın maraqları" adlı məqaləsində məhz bu problemi analiz edərək ən son siyasi tariximizdə baş verən hadisələr kontekstində belə yanaşmanın səbəblərini çoxsaylı arqumentlərlə izah edir. Bəlli olur ki, Azərbaycanda müxalifətçilik bir çox hallarda milli məqsədlərə xidmət edən missiya deyil, tam əksinə, milli maraqlarımıza zərbə vuran alət kimi çıxış edir. Doğrudan da, Əli Kərimli və onun kimi xüsusi missiya yerinə yetirən bir qrup marginalın fəaliyyəti xalqımızın maraqlarına hesablanmış siyasi fəaliyyətdən daha çox bizə qarşı olanların maraqlarının qorunması kimi qiymətləndirilə bilər. Diqqət etsək, görəcəyik ki, bu müxalifətçilik uğurları qəbul etməyən, milli inkişafa qısqanclıqla yanaşan, xalqın yanında yox, əgər belə demək mümkündürsə, problemlərin yanında olan müxalifətçilikdir. Ona görə də siyasi aktiv fərdlər tərəfindən dəstəklənməyən, sosial siyasi elektoratı olmayan müxalifətçilikdir. Əgər belə olmasaydı, bütün dünyanın təqdir etdiyi inkişafımızı və ölkəmizdə aparılan çoxşaxəli islahatları tənqid yox, təqdir edərdilər. Çünki milli maraqlarımız bunu tələb edir. Düşünürəm ki, bu kimi məqamları prof. Əli Həsənov olduqca doğru analiz edərək Azərbaycanda milli maraqlarımız baxımından Prezident İlham Əliyevin siyasətinə alternativ siyasətin olmadığı qənaətinə gəlir və bu məsələdə tamamilə haqlıdır".**

# Vüqar Rəhimzadə: Əli Kərimli öz liderinə xəyanətlə qazandığı "təcrübəni" indi də Azərbaycan dövlətinə qarşı istifadə edir



Fərqli və uğurlu inkişaf modeli, müasir və daha çevik idarəetmə mexanizmi, vətəndaşlara ən yüksək səviyyədə diqqət və qayğı... Və daha nələr-nələr. Sadaladığımız bu və digər faktlar bugünkü Azərbaycanın reallıqlarıdır. Ölkəmizlə bağlı daxildə və xaricdə baş verən hadisələr həqiqətən də təqdirəlayiqdir və xalq tərəfindən böyük rəğbətlə qarşılanır.

Heydər Əliyev siyasətinin, Prezident İlham Əliyevin 15 illik siyasi fəaliyyətinin müstəqil Azərbaycanın inkişafında müstəsna yeri və rolu var. Sadəcə, bir neçə statistik rəqəmə diqqət yetirmək kifayətdir. Son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,3, maaşlar 7, pensiyalar 9, valyuta ehtiyatları 24 dəfə artıb, işsizlik və yoxsulluğun həddi 5 faizə enib. Bununla yanaşı, 102 məcburi köçkün düşərgəsi salınıb, 300 min məcburi köçkün müasir yaşayışla təmin edilib, şəhid ailələrinə 7 minə yaxın mənzil, müharibə əlillərinə 6 mindən çox maşın verilib. Sözsüz ki, yüzlərlə, minlərlə bu kimi faktlar sadalamaq olar. Sadəcə, illərdir özünü xalqa müxalifət kimi təqdim edən, əslində isə xarici anti-Azərbaycan dairələrə işləyən Əli Kərimli və onun kimi qrant hərisləri bu gerçəklikləri görməyərək nadürüst əməllərindən əl çəkmirlər. Ona görə də Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən mükəmməl islahatların və əldə olunan uğurların daxili antimilli ünsürləri narahat etməsi "başadüşüləndir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, dünya dəyişir, inkişaf edir. Bu mənada Azərbaycan da öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Təbii ki, müasir dövrün çağırışlarına uyğun islahatlar həyata keçirmək daha aktualdır. Ölkə rəhbərliyi bunu görür və gələcək planlar, strategiyalar bu aktuallığa uyğun olaraq qurulur, müəyyən edilir. Əli Kərimli kimilərin ölkəmizlə bağlı "planları" isə hər zaman xaricdə qurulur və ona tezis formasında ötürülür. Təbii ki, bu "planlar" Azərbaycan üçün yaxşı heç nə vəd etmir. Ə.Kərimli günbəgün yeniləşən və inkişaf edən Azərbaycanın uğurlarını həzm edə bilmir və vaxtilə öz liderinə xəyanət edərək qazandığı "təcrübəni" Azərbaycanda tətbiq etməyə can atır. Bu gün dünya ölkəmizin "ASAN xidmət" inqilabından yararlanır, Ə.Kərimli isə vətəndaş qarşıdurması yaratmağa, Suriyanın "inqilab təcrübəsini" tətbiq etməyə çalışır. Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsində bu məsələlərə toxunub və müxalifəti faktlar qarşısında qoyaraq Ə.Kərimlinin iç üzünü bir daha xalqa nümayiş etdirib. Əli Həsənovun fikirləri Ə.Kərimlinin bu illər ərzindəki fəaliyyətinə verilən ən tutarlı qiymətdir.

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, Ə.Kərimli və onun kimilərin əsassız iddiaları xalqın gözündə heç bir dəyəri olmayan bu ünsürlərin son çırpınışlarıdır: **"Bu gün biz Prezidentimizin simasında əsl liderlik nümunəsi görürük. Ölkəmizin başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı Sərəncam imzalayır, minimum əməkhaqları təqribən 40 faiz artırılır, tələbələrin təqaüdləri yüksəlir, qaçqınlara və məcburi köçkünlərə müasir mənzillər və evlər verilir, yeni iş yerləri yaradılır, bir sözlə, xalqın sosial rifahını daha da yaxşılaşdırmaq üçün lazım olan bütün addımlar atılır. Ancaq Əli Kərimli və onun kimilər yenə narazıdır. İnsan öz xalqına, Vətəninə bu qədərmi düşmən kəsilə bilər?! Görünür, Əli Kərimlidə xalq, Vətənlə bağlı heç bir mənəvi dəyər qalmayıb. Bu cür dəyərsiz insanların sözü də dəyərsiz olur".**

# Bəhruz Quliyev: Milli xəyanətkarlar toplumu bundan sonrakı cəhdlərində də fiaskoya uğramaqda davam edəcəklər



Milli xəyanətkarlar toplumu bundan sonrakı cəhdlərində də ciddi fiaskoya uğramaqda davam edəcəklər. Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun bu günlərdə yazdığı məqalə belə deməyə əsas verir ki, son vaxtlar müxalifətin tamamilə siyasətdən kənar və cəmiyyətə layiq olmayan davranışlarının qarşısı məhz xalq tərəfindən alınmalıdır. Daha dəqiq desək, xalq-dövlət birliyi dağıdıcı təfəkkürə malik müxalifətin uğursuzluğunu daha açıq şəkildə göstərir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib. O qeyd edib ki, bu gün istər AXCP, istər "Milli Şura" kimi qurumlarda toplaşan "demokratlar" dövlətin xalq üçün gördüyü işlərdən, inqilabi islahatlardan ciddi şəkildə narahat olmağa başlayıblar. Əbəs deyil ki, istər buradakı siyasətbazlar, istərsə də onların xarici ölkələrdəki havadarları bu cür "fəallaşmaqla" Azərbaycan dövlətinin milli maraqlarına qarşı açıq-aşkar düşmənçilik mövqeyi sərgiləyirlər. Xalqın hakimiyyəti dəstəkləməsi, xalq-iqtidar birliyi radikal və dağıdıcı təfəkkürlü müxalifətin öz məğlubiyyətini etiraf etməsi ilə nəticələnir. Yəni, əldə edilən uğurlara qarşı müxtəlif cəhdlər olursa, bunun özü məğlubiyyət etirafı kimi qiymətləndirilməlidir.

B.Quliyev qeyd edib ki, istər Əli Kərimli, Cəmil Həsənli, istərsə də digər milli xəyanətkarlar dəstəsi xalq, dövlət vəhdəti qarşısında öz cılız siyasətlərini yürüdə bilməyəcəklər. Güclü dövlət, güclü xalq amili məhz bu cür düşünməyə zəmin yaradır. Bu, həm də bir reallıqdır ki, dövlətimizin əldə etdiyi nailiyyətlər, istər beynəlxalq arenada, istərsə də daxili siyasətdəki uğurlu nəticələr radikalizmin, milli xəyanətin və bu xəyanətdə iştirak edən bir qrup ünsürün qarşısını kəsməkdədir. Xalqımız dövlətinin və Prezidentinin yanında olmaqla xəyanətkarların, antidövlətçilərin fəallaşmasına imkan vermir. Xalqımız öz müdrikliyi ilə bundan sonra da dövlətimizin, Prezidentimizin ətrafında sıx birləşəcək. Buna heç bir şübhə yoxdur.

# Moskvada azərbaycanlılar və çeçenlər arasında məişət zəminində baş vermiş insident iki xalqın dostluq münasibətlərinə zərər vura bilməz

## *Ekspertlər qeyd edirlər ki, məlum hadisədən sui-istifadə edərək təxribatlar törətmək istəyən ermənilər öz məqsədlərinə çata bilmədilər*



***Sevinc Fətəliyeva:*** *Məişət zəminində baş vermiş adi kriminal hadisədən sui-istifadə etmək cəhdləri heç bir nəticə vermədi*



***Elman Məmmədov:*** *Ermənilər bu məişət hadisəsini şişirdərək ona siyasi rəng verməyə çalışırdılar, amma buna nail ola bilmədilər*

Məlum olduğu kimi, ötən həftə Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında insident baş verib. Lakin Azərbaycanın və Çeçenistanın rəsmilərinin məsələyə operativ reaksiyası, həmçinin Rusiyada hər iki xalqın nümayəndələrinin bir araya gələrək, dostluq qardaşlıq mesajları verməsi məişət zəminində baş verən xırda insidentdən istifadə edərək iki xalq arasında düşməniçilik toxumu səpmək istəyənlərin arzusunu gözündə qoydu. Xatırladaq ki, hadisədən dərhal sonra AZƏRTAC-a açıqlama verən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz: **"Azərbaycan və çeçen xalqları arasında əlaqələr tarixin sınağından çıxmışdır və nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyevlə Çeçenistan Prezidenti Ramzan Kadırov arasında mövcud olan şəxsi dostluq münasibətləri, ötən ilin sonlarında keçirdikləri görüşdə səslənən fikirlər buna əyani sübutdur. Ümumiyyətlə, azərbaycanlılar bütün Qafqaz xalqları ilə əsrlər ərzində formalaşmış ortaq tarixini, dəyərlərini yüksək qiymətləndirir və həmişə qorumağa çalışır".**

Azərbaycan ilə Rusiya arasında gündən-günə inkişaf edən əməkdaşlıq əlaqələrinin həm də ölkəmizin Şimali Qafqaz respublikaları, o cümlədən Çeçenistanla əməkdaşlığının möhkəmlənməsində önəmli rol oynadığını vurğulayan Əli Həsənov deyib ki, Rusiya çoxmillətli dövlətdir, burada yaşayan xalqlar öz dillərini, mədəniyyətlərini qoruyub inkişaf etdirirlər: **"Rusiyada yaşayan azərbaycanlılar da digər xalqlar kimi həmişə öz milli mədəni hüquqlarından tam istifadə edə bilirlər. Biz soydaşlarımızı, qardaş çeçen və Rusiyada yaşayan digər xalqların nümayəndələrini bu ölkədəki multikultural mühitdən, yaradılmış şəraitdən xoş məramlar, xalqlararası dostluğun inkişafına töhfə verəcək məqsədlər üçün istifadə etməyə, belə xoşagəlməz insidentlərə yol verməməyə dəvət edirik. Əminliklə bildiririk ki, Moskvada yaşanmış insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar".**

Öz növbəsində məsələyə müünasibət bildirən Çeçenistanın mətbuat və informasiya naziri Cambulat Umarov deyib ki, hər hansı bir cinayət hadisəsini, xuliqanlığı sosial şəbəkələrdə hansı formada şərh edilməsindən asılı olmayaraq yaymaq istəyənlər çeçen və Azərbaycan xalqlarının əlaqələrini, dostluq və qardaşlıq münasibətlərini poza bilməz. Bu, qeyri mümkündür. Bu əlaqələr yüzilliklərə söykənir: **"Qardaş Azərbaycan xalqını salamlayıram. Böyük qürurla qeyd etmək istəyirəm ki, çeçen xalqı beynəlxalq terrorçuların yaratdığı fitnəni, çeçenlərin həlak olduğu zaman Azərbaycanın bizə açdığı isti qardaşlıq qucağını heç vaxt unutmayacaq. Moskva və başqa yerlərdə kriminal hadisələr baş verən zaman onların məqsədi mənəvi inkişafın, mədəniyyətin nümayişi deyil. Onların məqsədi pul qazanmaq hərisliyi, insanları cinayətkarlığa sövq etməkdir.**

**Çeçen və Azərbaycan xalqları böyük sivilizasiyanın, böyük mədəniyyətin davamçılarıdır. Bu zənginlik atadan oğula, oğuldan nəvəyə ötürülə-ötürülə indiki möhkəm qardaşlıq və dostluq əlaqələrinə çevrilib. Hər hansı bir cinayət hadisəsini, xuliqanlığı sosial şəbəkələrdə hansı formada şərh edilməsindən asılı olmayaraq yaymaq istəyənlər çeçen və Azərbaycan xalqlarının əlaqələrini, dostluq və qardaşlıq münasibətlərini poza bilməz. Bu, qeyri mümkündür. Bu əlaqələr yüzilliklərə söykənir. Biz Ulu öndər Heydər Əliyevin və böyük Əhməd Hacı Kadırovun davamçılarıyıq. Biz düşmənçilik kimi bir ayıb əmələ yol verə bilmərik. Biz müasir, mədəni xalqlarıq. Qeydə alınan xırda narazılıqları münaqişələrlə deyil, atalarımızın bizə miras qoyduğu kimi çay süfrəsi arxasında həll etmişik. Mən azərbaycanlıları və çeçenləri müqəddəs "Qurani-Kərim"də deyildiyi kimi, məyus olmamağa çağırıram. Bu narazılığın yeganə çıxış yolu qardaşcasına görüşmək, bir-birini anlamaq və hörmət etməkdir. Bu, bizim əcdadlarımızdan qalan bir mirasdır. Azərbaycan və Çeçenistan respublikalarına sülh arzulayıram".**

Beləliklə, Azərbaycanın və Çeçenistanın rəsmiləri bu insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Eyni zamanda, o da xüsusi olaraq vurğulanıb ki, bu insidentdən sui-istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələr böyük yanlışlığa yol verirlər və öz çirkin niyyətlərinə çatmayacaqlar.

Öz növbəsində məsələyə münasibət bildirən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının (YAP) beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva da deyib ki, Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasında baş vermiş insident məişət zəminində yaşanmış adi kriminal hadisədir. Onun sözlərinə görə, tarixən Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələri mövcud olub və bu gün də xalqlarımız arasındakı münasibətlər müsbət xarakteri ilə səciyyələnir. Millət vəkili bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il noyabrın 27-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən də bu məsələlər diqqət mərkəzində olub. Dövlətimizin başçısı qeyd edib ki, bizim Çeçenistan Respublikası və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycanla Rusiya arasında münasibətlərin mühüm amilidir.

**"Azərbaycan ilə Rusiyanı, hər şeydən əvvəl, ümumi tarixi keçmiş birləşdirir, iki ölkə bir neçə onillik ərzində eyni ittifaqın tərkibində mövcud olub. Bu gün iki qonşu ölkə müstəqil dövlətlər kimi uğurla inkişaf edərək aralarındakı strateji tərəfdaşlıq münasibətlərini daha da möhkəmləndirir. Ölkələrimizi möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Tərəflərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Azərbaycan ilə Rusiya arasında uğurla inkişaf edən əməkdaşlıq əlaqələri, eyni zamanda, ölkəmizin Şimali Qafqaz respublikaları, eləcə də Çeçenistanla əməkdaşlığının möhkəmlənməsində mühüm rol oynayır. Bu gün, qeyd etdiyimiz kimi, Azərbaycan və çeçen xalqları arasında əlaqələr dostluq və qardaşlıq prinsipinə söykənir. O səbəbdən Rusiyanın paytaxtında məişət zəminində baş vermiş adi kriminal hadisədən sui-istifadə etmək cəhdləri heç bir nəticə vermədi. Ümumiyyətlə, bu cür cəhdlərlə xalqlarımız arasında düşmənçilik yaratmağa çalışmaq səyləri hər zaman iflasa məhkumdur",** - deyə S.Fətəliyeva vurğulayıb.

Millət vəkili onu da deyib ki, biz hadisələrin gedişi zamanı erməni lobbisinin bu hadisəni şişirtməkdə və ona siyasi rəng verməkdə maraqlı olduqlarını, sosial şəbəkələrdə qızışdırıcı, təhrikedici fikirlər paylaşdıqlarını müşahidə etdik: **"Sevindiricidir ki, onların bu fitnəkarlığı nəticəsiz qaldı və məişət zəminində baş vermiş bu hadisədən ermənilər öz maraqları üçün faydalana bilmədilər".**

Milli Məclisin deputatı Elman Məmmədov isə bildirib ki, çeçenlər və azərbaycanlılar dostluq və qardaşlıq ənənələrinə sadiqdirlər. Onun sözlərinə görə, Azərbaycan və çeçen xalqları arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərini hər hansı bir vasitə ilə sarsıtmaq mümkün deyil: **"Moskvada baş vermiş məlum insident məişət xarakterli idi. Amma maraqlı qüvvələr bu hadisədən istifadə edərək xalqlarımız arasında düşmənçilik toxumu səpmək üçün cəhdlər etdilər. Daha dəqiq desək, ermənilər sözügedən insidentdən istifadə edərək fərqli mənzərə yaratmağa, bu məişət hadisəsini şişirdərək ona siyasi rəng verməyə çalışırdılar, amma buna nail ola bilmədilər. Yəni onlar növbəti dəfə öz çirkin niyyətlərini ortaya qoydular və əsl simalarını bir daha nümayiş etdirdilər. Nəticə isə budur ki, ermənilər öz məqsədlərinə çata bilmədilər".**

Beləliklə, məlum hadisədən sui-istifadə edərək təxribatlar törətmək istəyən ermənilər öz məqsədlərinə çata bilmədilər. Xüsusi məqam budur ki, bundan sonra azərbaycanlılar və çeçenlər ayıq-sayıq olmalıdırlar, çünki düşmənlərimiz öz çirkin niyyətləri naminə təxribat törətmək və hər cür vasitədən istifadə etmək üçün pusquda durublar. Şübhə yoxdur ki, onlar müxtəlif məsələlərdən manipulyasiya vasitəsi kimi istifadə etməklə bundan sonra da xalqlarımız arasında düşmənçilik toxumu səpmək üçün fürsət axtaracaqlar.

**Nurlan QƏLƏNDƏRLİ**

# Vüqar Bayramov: Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu



Azərbaycan Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı uzun müddət müzakirə edilən və vətəndaşlarımız üçün aktual olan problemin həllinə hüquqi zəmin formalaşdırıb. Nəzərə alsaq ki, çoxmənzilli binaların istismarı prosesi ciddi şəkildə sadələşdirilir, bu, olduqca mühüm bir Fərmandır. Bir sözlə, Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, 2019-cu il yanvarın 1-dək inşa edilmiş bütün çoxmənzilli binalarla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən rəyin hazırlanması və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilməsi nəzərdə tutulur. Müsbət rəy alan binalar komitə tərəfindən istismara buraxılacaq və həmin mənzillərdə yaşayan vətəndaşlar çıxarışla təmin olunacaq. Fövqəladə Hallar Nazirliyi rəyi iki ay ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edəcək. Komitə isə binaların yeddi gün ərzində istismara verilməsi ilə bağlı qərar qəbul edəcək. Göründüyü kimi, olduqca qısa zamandır. Yeni Fərman imkan verəcək ki, vətəndaşlar çoxmənzilli binalarda kommunal xidmətlərlə tam təmin olunsunlar.

Ekspert əlavə edib ki, bu gün xeyli sayda bina var ki, onlarla bağlı rəy olmadığı üçün qazla təmin edilməyib. Yeni Fərman bu kimi problemlərin aradan qaldırılmasına imkan verəcək. Bu proses bir ay müddətində həyata keçiriləcək.

Vüqar Bayramov qeyd edib ki, bu Fərmanın imzalanması əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasəti istiqamətində atılan daha bir önəmli addımdır.

# Rauf Əliyev: Əhalinin sosial rifah halının davamlı olaraq yaxşılaşdırılması Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasi kursun mühüm tərkib hissəsidir

**"Əhalinin sosial rifah halının davamlı olaraq yaxşılaşdırılması Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasi kursun mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində son illərdə Azərbaycan sürətlə inkişaf edərək böyük iqtisadi uğurlar əldə edib".** Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev deyib.



R.Əliyev bildirib ki, əldə olunan iqtisadi uğurlar ölkədə geniş sosial islahatlar aparılmasına, əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə şərait yaradıb. Onun sözlərinə görə, son 15 ildə ölkədə 2 milyon yeni iş yeri açılıb, əməkhaqqı 7 dəfə, pensiyalar 9 dəfə artıb. İşsizlik səviyyəsi 5 faizə, yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə endirilib. Son 15 ildə 3 min 200-dən çox məktəb tikilib və ya əsaslı təmir edilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 Olimpiya mərkəzi inşa olunub.

Millət vəkili qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə xüsusi diqqət və qayğı göstərilir. **"2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra cənab Prezident tərəfindən imzalanan ilk Fərman da buna bariz nümunədir. Şəhid hərbi qulluqçuların ailələrinə 11000 manat birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan Fərman bu ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan ən mühüm addımlardan biridir",** - deyən millət vəkili əlavə edib ki, 12779 şəhid ailəsi, 119 nəfər 20 Yanvar şəhid ailəsi, 11994 nəfər Qarabağ əlili, 327 nəfər 20 Yanvar hadisələri zamanı əlil olanlar Prezident təqaüdü, 49692 nəfər Qarabağ müharibəsi veteranı müavinəti ilə təmin olunur. Onun sözlərinə görə, dövlət başçısının şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərdiyi xüsusi qayğı nəticəsində 2018-ci ildə əvvəlki ilə nisbətən bu kateqoriyadan olan ailələrə 3 dəfə çox - 626 mənzil təqdim olunub. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Şəhid ailələrinə, müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi olaraq artırılıb. Azərbaycan Prezidentinin 30 yanvar 2019-cu il tarixli Fərmanı ilə şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği artırılaraq 300 manat müəyyən edilib.

**"Dövlət başçısının 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə bu ilin mart ayının 1-dən minimum əməkhaqqının 38,5 faiz (50 manat) artırılaraq 180 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən müəssisə və təşkilatlarda, eləcə də özəl sektorda çalışan azı 600 min işçinin əmək haqqının artırılmasına imkan verəcək. Minimum əməkhaqqının artırılması üçün dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin 10 ayı üçün 335 milyon manatadək əlavə vəsait ayrılacaq. Azərbaycan Prezidentinin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" 14 fevral 2019-cu il tarixli Sərəncamı, "Azərbaycan Respublikasının ali məktəbləri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli Fərmanında dəyişiklik edilməsi ilə bağlı 14 fevral 2019-cu il tarixli Fərmanı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri orta hesabla 20 faiz artırılır. Bu da 600-ə yaxın doktorantı və 110 mindən artıq tələbəni əhatə edir. Bu yaxınlarda əmək pensiyalarının minimum məbləğinin 116 manatdan 160 manatadək artırılması da nəzərdə tutulur. Bu da təxminən 38 faiz artım deməkdir. Bu artımdan 233 min əmək pensiyaçısı yararlanacaq. Bu artımın maliyyələşməsi üçün ildə dövlət büdcəsindən 49 milyon manat vəsait ayrılacaq. Azərbaycan Prezidenti cənab İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin sosial rifah halının daha da yaxşılaşdırılmasını təmin edən son Fərman və sərəncamları bir daha göstərir ki, dövlət başçısının rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən siyasi kursun mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifah halının davamlı olaraq yüksəldilməsi dayanır və bu siyasət bundan sonra da uğurla davam etdiriləcək",** - deyə komitə sədrinin müavini vurğulayıb.

# Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır



*Milli Məclisin deputatı Elşən Musayev www.yap.org.az saytına müsahibə verib:*

**- Elşən müəllim, Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun mütəmadi olaraq artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, ikili standartlara əsaslanan qərəzli yanaşma nümayiş etdirirlər. Bununla bağlı fikirləriniz nədən ibarətdir?**

- Əvvəla, hər yerdə söylədiyim fikri sizin saytınız vasitəsilə bir daha bəyan edim: Azərbaycanın uğurları, cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan, nəzərəçarpan inkişaf yalnız və yalnız özümüzə, Azərbaycan vətəndaşına sərf edən məsələdir. Yəni kənardan kimsənin marağında deyil ki, biz bu qədər inkişaf edək, böyük görünək, güclü olaq. Sadəcə, müəyyən qisim kənarda durur, seyrçidir, səsini çıxarmır, bəziləri isə açıq qısqanclıq edirlər. Belə olan halda da anti-Azərbaycan qüvvələr müəyyən məqamlarda və məkanlarda yaranır, formalaşır, bəlli istiqamətlərdən dövriyyəyə buraxılır. İlk dəfədirmi? Xeyr. Bu qüvvələr hər zaman olub. Ölkəmizə qarşı ədalətsizlik də olub, qarayaxma da olub, ikili-üçlü standartlar da. Bəzən hətta bu standartlar iyirmili-otuzluya çevrilir.

Xaricdə xüsusi qüvvələr var ki, onlar açıq bir formada haqqı nahaqqa qurban verərək ölkəmizə qarşı müxtəlif üsul-formatlarla hücuma keçirlər. Təbii, həmin hücumlar hər dəfəsində də dəf olunur, belələri heç bir qara niyyəti məhz Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb də sadədir: harada xalq və Prezident birliyi var, həmin münasibətlərin arasına kimsə girə bilmir. Çünki girmək mümkün deyil. Cənab İlham Əliyev ləyaqətli liderdir, O, Azərbaycanın bəxtidir, şansıdır. Belə bir şəxsiyyətin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Onun prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət bütün məqamlarda Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb, bundan sonra da aparacaq. O, Öz vətəndaşının, xalqının qarantı olmaq missiyasını ən mükəmməl şəkildə daşıyan rəhbərdir. Prezident İlham Əliyevin yanında olmaq, Onu dəstəkləmək isə artıq bizlər üçün bir tək seçici missiyası deyil, həm də şərəf məsələsidir.

**- Anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən antimilli ünsürlər, yəni ölkəmizdəki "beşinci kolon" nümayəndələri də Azərbaycanda sabitliyin pozulmasına çalışır, mitinq adı altında təxribatçı hərəkətlərə yol verirlər. Buna münasibətiniz necədir?**

- Bu fakt onu ifadə edir ki, azərbaycanlı olmağına baxmayaraq, özünü bizdən zənn etməyən, xalqı da, vətəni də ən xırda fürsətləri olsa, hərraca çıxarmağa hazır olan qüvvələr var. Belələri üçün vətən təəssübkeşliyi deyilən anlayış yoxdur. Həmin qisim bütün siyasi fəaliyyətləri boyunca kiməsə işləyib, sifariş yerinə yetiriblər. Onlara "beşinci kolon" da deyirik, "antimilli ünsür" də, "sapı özümüzdən olan baltalar" da. Amma belələrinin əsl adı bilirsinizmi nədir? - Vətən xaini. Bax bu ad onlara daha gözəl yaraşır. Əksəriyyəti xaricdə oturub elə xaricdən də idarə olunanlardır. Bəsirət gözləri qapalı olan bu zavallılar fərqində belə deyillər ki, günbəgün hansı nifrəti qazanırlar, kənardan özlərinə qarşı necə ikrah yaradırlar. Daxildəki radikallar da onlardan geri qalmırlar. Bekar olan kimi mitinq keçirirlər. Anlamırlar ki, mitinq - insanları cinayətə, qeyri-etik çağırışlara, destruktiv fəaliyyətə yönəltməməlidir. Mitinq - anarxiya, xaos elementi deyil. Mitinq sivil formada ifadə azadlığının, fikri cəmiyyətə çatdırma mexanizminin bir qoludur. Amma bunlar mitinqlərdən, aksiyalardan da öz təyinatı üzrə istifadə etmirlər, edə bilmirlər. Çünki dediyim kimi: bu, zərurətdən deyil, bekarçılıqdan doğan məsələdir.

**- Bu gün sosial şəbəkələrdə bəzi qruplar tərəfindən Azərbaycan xalqına və dövlətinə qarşı təhqiramiz, radikal çağırışların səsləndirilməsi cəmiyyətdə böyük narazılıq doğurur. Bu cür hallara qarşı qanunvericilik səviyyəsində hansı addımlar atılmalıdır?**

- Mən məhz bu məsələ ilə bağlı Milli Məclisin plenar iclasında da, media üzərindən də konkret təkliflərlə çıxış eləmişəm. Belə ünsürlər hansısa formada islah olunmalıdırlar. Bir vətəndaş kimi mənim arzum budur. Yolu nədir? Lap əvvəl birəbir hamısına cinayət işi qaldırılmalı, qiyabi də olsa istintaq aparılmalıdır. Daha sonra ekstradisiya müqavilələri incələnməlidir ki, kimlə hansı müqavilə şərtlərimiz var və həmin şərtlərdən çıxış edərək neyləmək olar.

İkincisi, dəfələrlə qeyd etmişəm, bir daha vurğulayıram: Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır. Bunun üçün daha ciddi və fundamental qanunvericilik əsasları yaratmalıyıq. Çünki zaman bunu tələb edir. Belə ünsürlərin videobloqlarının, təhrikçi çıxışlarının, sosial şəbəkələrdəki hesablarının Azərbaycana çıxışı əngəllənməlidir. Kimsə internet məkanında bu ünsürlərin iyrənc fikirləri ilə qarşı-qarşıya gəlməməlidir. Bizim bu fikirlərimizi bəzən kontekstdən çıxarıb internetin, sosial şəbəkələrin yasaqlanması ideyası kimi də təqdim edirlər. Xeyr, belə deyil. Əksinə, internetin gücü, resursları bir az da artsın, amma cinayətkarların həmin imkandan bəhrələnə bilməməsi şərti ilə! Tələbimiz və arzumuz məhz budur. Heç şübhəsiz, həmin antimilli ünsürlər bir gün mütləq hüquqa, qanuna, istintaqa, məhkəmələrə təslim ediləcəklər. Amma həmin zamanı, müddəti oturub sakitcə gözləməməliyik. İslahın bir çox vasitələri var. Həmin vasitələr təxirəsalınmaz formada düşünülməli, tapılmalı və icra edilməlidir.

# Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir...

*Hər il olduğu kimi bu il də ölkə daxilində və xaricdə soyqırımı ilə bağlı tədbirlər keçiriləcək, faciə qurbanlarının xatirəsi yad ediləcək*




Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımının törədilməsindən 27 il ötür. Hər il olduğu kimi bu il də Azərbaycanın bütün regionlarında və xarici ölkələrdə Xocalı soyqırımı ilə bağlı tədbirlər keçiriləcək, bu qanlı terror aktı nəticəsində həyatını itirmiş insanların xatirəsi yad ediləcək. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planına əsasən Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub. Eləcə də ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım tədbirləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq. Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Bu məqamda vurğulamaq lazımdır ki, bu qanlı soyqırımı aktı, erməni şovinizminin əsl mahiyyətini növbəti dəfə bütün çılpaqlığı ilə ortaya çıxarıb. Həmin vaxt ermənilərin Xocalını hədəf seçməsi isə heç də təsadüfi deyildi. Belə ki, ən strateji nöqtələrdən sayılan Xocalını işğal etmək üçün ermənilər ilk növbədə şəhərin ətrafındakı əraziləri zəbt etməyə baladılar. 1992-ci il yanvarın 10-da ermənilər Axullu kəndini zəbt etdilər, həmin ilin fevralında Malıbəyli və Quşçular kəndləri hücuma məruz qaldılar. Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə bu kəndlər də ermənilər tərəfindən işğal olundu. Malıbəyli və Quşçular kəndlərinin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı yenə də 366-cı motoatıcı alayın əsgər və zabit heyəti, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülər hesabına ermənilərin əlinə keçdi. Kənd əhalisi vəhşicəsinə qətlə yetirildi. Artıq 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmişdi, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu.

Vurğulandığı kimi, ermənilər üçün əsas hədəf Xocalı idi. Və Azərbaycanın o vaxtkı rəhbərliyinin səriştəsizliyi, həmçinin hakimiyyət uğrunda davam edən savaş ermənilərin Xocalı ilə bağlı planlarını daha tez həyata keçirmələrinə təkan verirdi. Beləliklə, 1992-ci il fevralın 25-də Xocalı daha dəhşətli dərəcədə artilleriya və digər hərbi texnikadan atəşə tutulmağa başladı. Bu işdə keçmiş SSRİ ordusuna məxsus 366-cı alayın texnikasından geniş istifadə olundu və Xocalı işğal edildi. Ümumiyyətlə, bu alay Xocalı ilə yanaşı, Azərbaycanın digər kəndlərinin də atəşə tutulmasında dəfələrlə iştirak edib. Bunun əsas səbəblərindən biri də alayda xeyli sayda erməninin olması idi.

Məlumat üçün bildirək ki, Xocalı soyqırımı zamanı 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca bir neçə saatın içində milli zəmində amansızlıqla qətlə yetirildi. Ermənilər 487 nəfəri ağır xəsarətlərə məruz qoydu, 1275 nəfəri isə girov götürdü. Ermənilər qaniçənlikdə vaxtilə dünyanı lərzəyə salmış faşizmi də geridə qoyduqlarını nümayiş etdirdilər. Beynəlxalq humanitar hüquq normalarını, insan hüquqları üzrə ən müxtəlif konvensiyaları ayaq altına atan erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atdılar. Şahidlərin təsdiqlədiyinə görə, həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək olan uşaqlar, ahıl qocalar güllələnib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarınları yarılıb, adamlar diri-diri torpağa basdırılıb və ya yandırılıblar. Güllə yarasından ölməyənlərin başlarına sonradan güllə vurulub, meyitlər zorakılığa məruz qalıb.

Onu da qeyd edək ki, yalnız Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bir çox milli faciələrimiz kimi, Xocalı soyqırımına da siyasi-hüquqi qiymətin verilməsi mümkün oldu. Ümummilli liderimizin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul etdi, sənəddə hadisənin baş vermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı. Eyni zamanda, Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni vəşhiliklərinin beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi önə çəkildi. Ümummilli liderimizin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Ulu öndər tərəfindən əsası qoyulan bu ənənə Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Məhz ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində bu gün Xocalı soyqırımı ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırılıb. Aparılan siyasətin nəticəsidir ki, dünyanın 10-a yaxın dövləti, eləcə də ABŞ-ın 16 ştatı və bir sıra beynəlxalq təşkilatlar Xocalı soyqırımını rəsmən tanıyıb və bu soyqırımı pisləyən qətnamə qəbul ediblər.

Bu istiqamətdə Ulu öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun xidmətləri isə xüsusi vurğulanmalıdır. Məhz Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir sıra ölkələrin paytaxtında Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının səyi ilə Xocalı soyqırımının adı İsveçdə yaradılmış və virtual aləmdə geniş vüsət almış mükəmməl "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilib və Xocalı soyqırımının adı Srebrenitsa, Xolokost, başqa yerlərdə törədilmiş soyqırımları və qətliamlarla bir sırada çəkilib. Hər il fevral ayının 26-da isə dünyanın aparıcı dövlətlərinin paytaxtlarının mərkəzi meydanlarında Xocalı soyqırımında həlak olan günahsız insanların xatirələri anılır, fləş-moblar həyata keçirilir, bu soyqırımının tanıdılması yönündə işlər aparılır. Bundan başqa, Xocalı soyqırımı ilə bağlı mütəmadi şəkildə xarici ölkələrdə olan səfirliklərimizdə sərgilər və bir sıra tədbirlər təşkil edilir.

**Pərviz SADAYOĞLU**

# Ötən il Yevlaxda tikinti-quruculuq işləri davam etdirilib



Yevlax rayonunda 2018-ci ilin yekunlarına həsr olunan hesabat yığıncağı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül-çiçək düzüblər.

Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Yevlax şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov bildirib ki, hesabat dövründə tikinti-quruculuq və abadlıq işləri davam etdirilib, infrastrukturun yaxşılaşdırılmasına xüsusi fikir verilib. Bu dövrdə Kür çayı üzərində dəmir yolu körpüsünün, Aran qəsəbəsində Ailə-Sağlamlıq Mərkəzinin binasının tikintisi başa çatdırılıb. Mingəçevir şəhəri-Bəhrəmtəpə avtomobil yolunun Yevlax rayonundan keçən Aran qəsəbəsi-Yevlax Bərdə yolunadək olan hissəsi, Qoyunbinəsi-Hacımahmudlu-Qaramanlı kəndlərarası avtomobil yolu, Bakı-Ələt-Qazax avtomobil yolu üzərindəki körpü, 60 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib. Rayonun 12 kəndində meliorasiya işləri aparılıb. 2 nömrəli körpələr evi-uşaq bağçası, elektron kitabxana, şəhər yaradıcılıq mərkəzinin binası, Mədəniyyət Mərkəzinin və 12 yaşayış binasının dam örtüyü əsaslı təmir olunub. Yevlax şəhərinin Füzuli və Pişəvəri küçələrində abadlıq və əsaslı təmir işləri aparılıb.

Hazırda Kür çayı sahilində beşulduzlu hotelin, 12 saylı Ərazi Vergilər Departamentinin, doqquzmərtəbəli 45 mənzilli yaşayış binasının, data internet mərkəzinin tikintisi davam etdirilir. Aran qəsəbəsindəki mədəniyyət evində əsaslı təmir və yenidənqurma işləri aparılır.

Yığıncaqda aqrar sahədə görülən işlərdən bəhs edilərkən bildirilib ki, 2018-ci ildə rayonda 6570,6 hektarda buğda, 5082 hektarda arpa, 2900 hektarda təzə yonca, 9 hektarda kələm, 8 hektarda baş soğan, 80 hektarda sarımsaq becərilib. 2500 hektar pambıq tarlasından 5296,4 ton məhsul yığılıb.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq pambıq, taxıl istehsalının artırılması və digər bitkiçilik sahələrinin inkişaf etdirilməsi üçün Yevlax rayonunun Aran qəsəbəsi ərazisində 4000 hektar sahədə Yevlax "Aqropark" MMC yaradılıb. Aqroparkın ərazisinə Yuxarı Qarabağ kanalından 14 kilometr yeni su xəttinin çəkilməsi, müasir pivot suvarma sistemlərinin quraşdırılması və 3000 başlıq cins mal-qara kompleksinin tikintisi üçün layihə işləri aparılıb.

Məruzə və çıxışlarda əhalinin həyat şəraitinin yaxşılaşdırılması, elektrik enerjisi, təbii qaz və su ilə təminatı, təhsilin, mədəniyyətin inkişafı sahəsində görülən işlər təhlil edilib, uğurlarla yanaşı problemlər də sadalanıb, onların həlli üçün təkliflər irəli sürülüb.

Prezident Administrasiyasının məsul əməkdaşı Vəfadar Bağırov və Milli Məclisin deputatı İlham Məmmədov yığıncaqda çıxış edərək, 2018-ci ildə respublikada sosial-iqtisadi sahədə görülən işlərdən, əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışıblar. Sonda qərar layihəsi oxunub, yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

# Şəhərdə kənd ab-havası

*Ekoloji təmiz, təbii və keyfiyyətli kənd təsərrüfatı məhsullarının satıldığı ünvan - "Kənddən Şəhərə"*










***Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla icrası ölkəmizdə bütün sahələrin inkişafına təkan verib. Və bu inkişafdan kənd təsərrüfatına da pay düşüb. Məhz bunun nəticəsidir ki, ölkəmizdə aqrar sahədə də uğurlar əldə edilib. Eyni zamanda, Azərbaycanda ərzaq təhlükəsizliyinin, həmçinin əhalinin ekoloji cəhətdən təmiz yerli ərzaq məhsulları ilə təmini istiqamətində atılan addımlar öz bəhrəsini verir. Bu istiqamətdə növbəti addım isə ötən il dekabrın 25-də atılıb. Məlum olduğu kimi, həmin tarixdə Dövlət Aqrar Ticarət Şirkətinin Bakı şəhəri, Nizami küçəsi 154B ünvanında "Kənddən Şəhərə" - ilk yerli fermer və qida məhsullarının satış mərkəzi istifadəyə verilib. Bəs, artıq iki aydır paytaxt sakinlərinə xidmət göstərən bu satış mərkəzini başqalarından fərqləndirən cəhətlər nədir? Ötən müddət alıcı marağı baxımından hansı nəticəyə gəlməyə əsas verir? Bu və digər suallara cavab tapmaq məqsədilə sözügedən ünvana yollandıq.***

### HƏM ALIŞ-VERİŞ ET, HƏM DƏ DİNCƏL

Öncə onu deyək ki, bura gələn alıcılar ilk olaraq gülərüz satıcılarla qarşılaşır, təmiz və rahat bir məkanda alış-veriş imkanı əldə edirlər. Üstəlik, əgər siz yorğunsunuzsa, "Kənddən Şəhərə" layihəsinin müəllifləri bunu da düşünüblər. Belə ki, mağazanın bir hissəsində ayrılmış istirahət yerində oturub dincinizi ala, ağız dadınıza və cibinizə uyğun şirniyyatlar, həmçinin çay sifariş edərək, yorğunluğunuzu çıxara bilərsiniz. Digər tərəfdən, alıcılar alış-veriş edərkən satış mərkəzinin rəhbər heyəti ilə də görüşmək imkanı əldə edirlər. Çünki rəhbər heyət də, demək olar ki, günün bütün vaxtlarında satıcıların alıcılara necə xidmət etməsini müşahidə etmək, alıcıların nədən razı, nədən narazı olmasını öyrənmək üçün satış mərkəzində olurlar.

Elə suallarımıza cavab almaq üçün müraciət etdiyimiz Dövlət Aqrar Ticarət Şirkətinin direktor müavini, layihənin koordinatoru Sərxan Sərxanovla də piştaxta yanında qarşılaşdıq. Bu satış mərkəzini fərqləndirən cəhətlərlə bağlı sualı cavablandıran Sərxan Sərxanov dedi ki, "Kənddən Şəhərə" layihəsi müasir yarmarka konsepsiyası üzərində qurulub: **"Belə ki, "Kənddən Şəhərə" Dövlət Aqrar Ticarət Şirkətinin kiçik və orta fermer təsərrüfatı sahiblərinin yetişdirdiyi məhsulların, eləcə də yerli istehsal ərzaq məhsullarının satışına dəstək məqsədilə həyata keçirdiyi bir layihədir".**

Müsahibimizin sözlərinə görə, hər gün axşam saat 22.00-dək fəaliyyət göstərən satış mərkəzində ekoloji təmiz, təbii və keyfiyyətli kənd təsərrüfatı məhsulları əldə etmək olar. Burada həm xammal, həm də emal olunmuş formada yalnız yerli qida məhsullarının satışı həyata keçirilir: **"Satış mərkəzində fermerlər, yerli qida istehsalçıları üçün hər bir şərait yaradılıb. Onlar məhsullarını bizdə ödənişsiz qeydiyyatdan keçirirlər, Qida Təhlükəsizliyi Agentliyinə uyğun lazımi sənədləri təqdim edirlər və satış bu mərkəzdə həyata keçirilir".**









Burada satılan bütün məhsulların Qida Təhlükəsizliyi Agentliyinin yoxlamasından keçməsi barədə məqama gəlincə, qurum rəsmisi bildirdi ki, bununla bağlı hər hansı kiçik şübhə belə ola bilməz: **"Dekabrda keçirdiyimiz "Kənddən Şəhərə" yarmarkası zamanı ilk diqqət etdiyimiz məsələ məhz qida təhlükəsizliyi idi. Belə ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə əldə edilmiş razılığa əsasən, yarmarka ərazisində Qida Təhlükəsizliyi İnstitutunun səyyar laboratoriyası fəaliyyət göstərirdi və bütün məhsullar bu laboratoriyalarda yoxlanırdı. Hazırda isə satış mərkəzinə gətirilən məhsullar, o cumlədən ət məhsulları Qida Təhlükəsizliyi Agentliyinin bütün yoxlamalarından keçəndən sonra satışa çıxarılır".**

### "KƏNDDƏN ŞƏHƏRƏ"Nİ SEÇƏN ALICI HƏM QİYMƏTDƏ, HƏM DƏ KEFİYYƏTDƏ QAZANIR

Onu da bildirək ki, burada keyfiyyətlə yanaşı, qiymət məsələsinə də xüsusi diqqət yetirilir. Yəni Sərxan müəllimin vurğuladığı kimi, satış mərkəzi sakinlərə sərfəli qiymətlə yüksəkkeyfiyyətli məhsullar təklif edir: **"Məsələn, bizdə ət yerli bazarlardan qat-qat ucuzdur. Eyni zamanda, quş ətləri də yerli bazara nisbətən ucuzdur. Heç bir süni qiymət artımı yoxdur və ola da bilməz. Beləliklə, "Kənddən Şəhərə"ni seçən alıcı həm qiymətdə, həm də kefiyyətdə qazanır".**

### PAYTAXT SAKİNLƏRİ ÜÇÜN NOVRUZ YARMARKASI TƏŞKİL EDİLƏCƏK

Sərxan Sərxanov onu da bildirdi ki, "Kənddən Şəhərə" layihəsi çərçivəsində paytaxt əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına artan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, həmçinin süni qiymət artımının qarşısını almaq məqsədilə dekabrda kənd təsərrüfatı məhsullarının satış yarmarkası da təşkil edilib: **"Bu yarmarka ilk dəfə olaraq Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təşkil edilib. Növbəti yarmarka isə Novruz bayramı ərəfəsində təşkil ediləcək. Novruz bayramından 1 həftə qabaq başlayacaq yarmarka bayramın ilk günlərində də davam edəcək. Birinci yarmarkada olduğu kimi, bu dəfə də fermerlərin özləri öz məhsullarını alıcılara təqdim edəcəklər".**

Qurum rəsmisinin sözlərinə görə, yarmarkada istehsal etdiyi məhsulu satacaq fermerlərdən heç bir iştirak haqqı tələb olunmur: **"Əvvəlki yarmarkada olduğu kimi, bu dəfə də istiliklə təchiz olunan yarmarkada iştirakçılar xüsusi xalat, piştaxtalar və tərəzilərlə təmin ediləcəklər. Bütün növ yerli kənd təsərrüfatı məhsullarının satışının təşkil ediləcəyi yarmarkada alıcılar meyvə-tərəvəz, müxtəlif çərəzlər, qablaşdırılmış məhsullar, ət və süd məhsulları, bal və s. ala biləcəklər".**

### ALICILARI DAHA HANSI YENİLİKLƏR GÖZLƏYİR?

Yeri gəlmişkən, "Kənddən Şəhərə" satış mərkəzi alıcılar üçün bir sıra yeniliklər də nəzərdə tutub: **"Öncə onu deyim ki, bu il ərzində Bakının müxtəlif ərazilərində, həmçinin şəhərətrafı qəsəbələrdə yeni "Kənddən Şəhərə" satış mərkəzlərinin açılması nəzərdə tutulur. Eyni zamanda, alıcıların satış mərkəzində kənd ab-havasını tam yaşamaları üçün burada təndir də quraşdırılıb. Yəni bura gələn alıcı təndirdən yeni çıxan isti çörək, həmçinin yenicə bişmiş qutab, ləvəngi ala bilər. Bir sözlə, bura gələn alıcı özünü sanki kənddə hiss edəcək".**

Digər bir yenilik isə alıcılar üçün nəzərdə tutulan güzəşt kartları ilə bağlıdır. Artıq bu kartların hazırlanması istiqamətində işlər gedir və qısa müddət ərzində həmin kartlar alıcılara təqdim olunacaq: **"Bundan başqa, gələcəkdə müştəriləri polietilen torbalardan çəkindirib, parça torbalardan istifadə etmələri üçün də addımlar atmağı düşünürük. Onu da deyim ki, parça torbalar artıq bizdə satışda da var və müştərilər bu torbalardan istifadəyə böyük maraq göstərirlər".**

Müsahibim sonda **"Təbii ki, biz yeni təkliflərə, yeni istəklərə açığıq. Hər zaman müştəriləri dinləməyə hazırıq. Buyurub, təkliflərini versinlər"** - sözlərini də əlavə etdi.

**Nadir AZƏRİ**

# "Milli şura" iqtidarın həyata keçirdiyi uğurlu siyasətə özünü "həmmüəllif" kimi göstərməklə siyasi plagiatizmlə məşğul olur

*Əli Kərimli və onun yaxın ətrafının bu cür cəhdləri uğursuzluğa məhkumdur*



İllərdir ki, öz ənənəvi çərçivəsindən çıxa bilməyən radikal müxalifət düşərgəsi hər bir uğursuzluğunun ardından absurd "manevrlər"lə diqqət mərkəzinə düşməyə, öz cılızlıqlarını ört-basdır etməyə çalışır. Bunu isə "siyasi texnologiya" kimi qavrayan radikal ünsürlər yalançı birliklər qurmaqla, pullu "mitinq tamaşaları" təşkil etməklə gündəmdə qalmaq niyyətindədirlər. Təbii ki, əsl müxalifətçilik missiyasından uzaq olan, yalnız şəxsi maraqlara və sifariş aldıqları ünvanların, antimilli mərkəzlərin direktivlərinə əsaslanan düşüncə və yanaşma tərzi ilə özünü gözə soxmağa cəhd göstərənlər köhnə "şakərlərindən" əl çəkmirlər. Hətta "təşkil etdikləri" icazəli mitinqlərdə belə yeni fikir söyləyə bilməyənlər köhnə, pafoslu yalanlarını danışmaqdan usanmırlar. Ən əsası isə, həmin mitinqə yığa bildikləri cəmisi bir neçə min adamı "elektorat" deyə pul aldıqları xarici dairələrə sırımağa çalışanlar unudurlar ki, bu insanlar Azərbaycan cəmiyyətinin, seçicisinin cüzi faizini təşkil edir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "Facebook" səhifəsində yerləşdirdiyi "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsində də sözügedən məqamlara toxunulub. Vurğulanıb ki, bu adamlar sadə riyazi hesablamalar apara, bütün güclərini ortaya qoyub "Məhsul" stadionuna yığdıqları bir neçə min adamın Azərbaycanda elektoratın son dərəcə cüzi, sıfıra yaxın bir hissəsini təşkil etdiyini, tərəfdarlarının hətta ölkədə mövcud olan seçki məntəqələrinin sayından da az olduğunu görə bilmirlər...

Bəli, qeyd edildiyi kimi, 25 ildən artıq bir müddətdə müxalifət düşərgəsində ərsəyə gətirilən "birlik formatları"nın hər biri mövsümi xarakter daşıyıb, fəslin başında "bu dəfə gəlirik" deyə bir-birinə ümid və təsəlli verənlər axırda yabalaşmaya çıxıblar. Bunu yaxın tarix də sübut edir. Məsələn, Müsavat Partiyasının üzvlərinin parlamentin fəaliyyətindəki iştirakını xəyanət adlandıran Əli Kərimli unudurdu ki, analoji addımı cəmisi bir neçə il öncə özü atmışdı. Və ya min bir yalanla qondarma "Milli şura" qurub xarici pulların və antimilli mərkəzlərin çətirinin altına yığılanlar "pul mövsümü" bitən kimi bir-birinə düşmən kəsildi və təhqirlərlə dolu qarşılıqlı ittihamlar səsləndirməyə başladılar. Əslində bu faktın özü radikal ünsürlərin əsl mahiyyətini ortaya qoymağa bəs edir.

Bundan başqa, Əli Kərimlinin ümumxalq hüzn günü olan 20 Yanvar günündə Şəhidlər xiyabanına ziyarətə gələn, ümumiyyətlə, onun mövcudluğu ilə maraqlanmayan kütlənin qarşısına keçib, öz ətrafında izdiham görüntüsü yaratmağa çalışması, Şəhidlər xiyabanını ziyarət etmək istəyən insanları "öz elektoratı" kimi qələmə verməyə və ziyarət prosedurunu pozmağa çalışması hər kəsin yadındadır. "İcazə verilsəydi, minlərlə insanın müşayiəti ilə Şəhidlər xiyabanını ziyarət edəcəkdik", - deyən Ə.Kərimli cəmisi bir neçə gün sonra Məhəmməd Əmin Rəsulzadənin abidəsini ziyarəti zamanı öz yalanının əsirinə çevrildi. Bu ziyarətə "on min tərəfdarı" ilə gələcəyini bəyan edən Ə.Kərimli Novxanıya 120 nəfərlə daxil oldu. Bu faktın özü Ə.Kərimlinin qeyri-ciddi birisi olduğunu, onun siyasət anlayışının nə qədər bəsit olduğunu bir daha üzə çıxardı. İndi isə təzə "metod" icad ediblər.

Belə ki, radikal ünsürlər Azərbaycan iqtidarının dövlətin və xalqın rifahı, milli maraqları üçün atdığı addımları utanmadan öz adlarına çıxmağa çalışır, bunu "öz əməklərinin nəticəsi" kimi qələmə verməyə cəhd göstərirlər. Daha doğrusu, qondarma "Milli şura" iqtidarın həyata keçirdiyi uğurlu siyasətə özünü "həmmüəllif" kimi göstərməklə siyasi plagiatizmlə məşğul olur. Bu isə həm də ona dəlalət edir ki, Ə.Kərimli və ətrafındakılar Azərbaycanda gedən davamlı inkişaf proseslərindən çox narahatdırlar. Ölkəmizdə gündən-günə daha da möhkəmlənən vətəndaş birliyi, iqtisadi inkişaf, sabitliyin qorunması, vətəndaşların problemlərinin həlli ilə bağlı atılan addımlar və ən əsası, milli maraqlara xidmət göstərən dövlət siyasətinin yürüdülməsi Əli Kərimlini stress vəziyyətinə salır, onun isterik bəyanatlarına, açıqlamalarına səbəb olur. Çünki bütün bunlar nəinki onun çox arzuladığı və gecə yuxuda gördüyü hakimiyyət kürsüsünə yolunu bağlayır, ümumiyyətlə, bir siyasətçi kimi mövcudluğunu sual altına qoyur. Ə.Kərimli dərk edir ki, Azərbaycan xalqı onun kimilərinin təmsil olunduğu hakimiyyətin dövründə hökm sürən dərəbəyliyi, dövləti talanetməni, total korrupsiyanı və rüşvət faktlarını unutmayıb. Ölkəmizdə şəffaflığın təmin edilməsi, korrupsiya, rüşvətxorluq kimi neqativ hallara qarşı barışmaz mübarizənin aparılması Əli Kərimli və onun ətrafına sərf etmir. Onlar ittiham hədəflərini itirirlər, sözləri kəsərdən düşür və daha heç kimi aldada bilmirlər.

Nəticə etibarı ilə, adını müxalifət qoymuş, əslində isə faktiki olaraq "beşinci kolon" missiyasını həyata keçirən Ə.Kərimli və onun kimiləri Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar. Çünki ölkəmizdə formalaşan xalq-hakimiyyət birliyi Azərbaycanın sabitliyinin, inkişafının əsas qarantı kimi çıxış edir.

**Pərviz SADAYOĞLU**

# Nikol Paşinyanın siyasi riyakarlığı

*Yaxud Ermənistan rəhbərliyinin anlaşılmaz və ziddiyyətli çıxışları ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarını pozmağa hesablanıb*

Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdəki son çıxışı həmişə olduğu kimi, məntiqsiz, anormal məqamları ilə seçilib. Xüsusilə deputatlar qarşısında onun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə hökumətin mövqeyini sərgiləyərkən səsləndirdiyi anlaşılmaz və ziddiyyətli fikirlər müəyyən suallar yaradıb. Bu azmış kimi, N.Paşinyanın sülh danışıqlarına əngəl törədə biləcək bəyanatına oxşar digər bir açıqlama onun mətbuat katibi V.Karapetyandan gəlib. Heç şübhəsiz, daxili ictimai rəyə hesablanmış bu kimi bəyanatlar sülh danışıqlarının iştirakçısı olan Azərbaycanın və beynəlxalq vasitəçilərin nəzərində N.Paşinyanın qeyri-ciddi siyasətçi obrazını bir daha ortaya qoyur.

Təbii olaraq, Ermənistan baş nazirinin guya "Azərbaycanın müharibə üçün hazırlaşdığı və Dağlıq Qarabağ əhalisi adından danışıqlarda iştirak etmək hüququ olmadığı" şəklində sərsəm açıqlamalarına sülh danışıqları prosesinin birbaşa iştirakçısı olan Azərbaycan XİN-dən cavab gecikməyib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələ ilə bağlı KİV-ə açıqlamasında bildirib ki, Ermənistan baş nazirinin bəyanatlarından onun mövqeyini anlamaq mümkün deyil: **"Bir tərəfdən, münaqişənin həlli üçün sülh şəraitinin yaradılmasının önəmindən danışan Ermənistan rəsmisi, digər tərəfdən, danışıqlar prosesinin formatının dəyişdirilməsinə cəhdlər edir".**



Ermənistan rəsmilərinin səsləndirdikləri ziddiyyətli fikirlərə münasibət bildirən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə deyib ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinin danışıqlarda iştirakı barədə iddiaları danışıqlar prosesini iflic etmək cəhdləri hesab etmək olar: **"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin intensiv və nəticəyönümlü danışıqlar yolu ilə həlli üçün Azərbaycanın beynəlxalq ictimaiyyətlə birlikdə atdığı konstruktiv addımlarına baxmayaraq, son dövrlərdə Ermənistan tərəfindən müxtəlif rəsmi səviyyələrdə verilən açıqlamalar heç bir halda danışıqlar prosesinin irəli aparılmasına xidmət etmir".**

Qeyd olunanlardan belə bir nəticə çıxarmaq olar ki, N.Paşinyan və Ermənistanın yeni hökuməti sülhün əleyhinə olduğunu nümayiş etdirir. Bütün bunlar onu göstərir ki, işğalçı Ermənistan danışıqları mümkün qədər uzatmaqla status-kvonu saxlamağa, dolayısı yolla olsa da, onun legitimləşdirilməsinə çalışır.

Digər tərəfdən, məlum olduğu kimi, hazırda ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında aparılır. Bu danışıqlarda N.Paşinyanın rəhbərlik etdiyi hökumətin xarici işlər nazirinin iştirakı Ermənistanın danışıqların formatından imtina etmədiyini göstərir. Beləliklə, Ermənistan baş nazirinin ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlardan imtina etmədiyi halda, birdən-birə sülh danışıqlarının formatını şübhə altına almasını yalnız siyasi riyakarlıq kimi dəyərləndirmək olar.

Əgər bu qəbildən olan açıqlamalar, doğrudan da, sülh danışıqlarının formatının dəyişdirilməsi, hətta danışıqları pozmağa yönəlmiş cəhddirsə, bunun nəticələri Ermənistan tərəfinə yaxşı heç nə vəd etmir. Çox güman ki, N.Paşinyan bu mövqedə dayanmağın uzunmüddətli perspektivdə Ermənistan üçün əlverişli olmadığını da başa düşür. Ona görə də hazırda müxtəlif ziddiyyətli bəyanatlar verməklə sadəcə vaxt udmağa çalışır.

Sonda onu qeyd edək ki, əgər işğalçı Ermənistanın rəhbərliyinin danışıqları pozmağa yönəlmiş cəhdləri davam edərsə, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün bütün digər vasitələrdən istifadə ediləcək və Azərbaycan Silahlı Qüvvələri döyüş meydanlarında nəyə qadir olduğunu bundan sonra da işğalçılara göstərəcək. Ona görə də Ermənistandakı hərbi xunta rejiminin sonunu hazırlayan 2016-cı ilin Aprel döyüşləri, habelə Naxçıvan istiqamətində 2018-ci ildə həyata keçirilən uğurlu əməliyyatlar əslində N.Paşinyan üçün ibrət dərsi olmalıdır.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# Həştərxanda RAGB-nin təşəbbüsü ilə keçirilən "Xəzər-2019 mükafatı" festivalının qalibləri elan edilib




Həştərxanda hər il keçirilən "Xəzər mükafatı" beynəlxalq gənclik festivalının qaliblərinin mükafatlandırılmasına həsr edilmiş təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, "Xəzər mükafatı" festivalı Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Həştərxan regional bölməsinin sədri Elvin Hüseynov tərəfindən Həştərxan Regional Gənclər Agentliyi və vilayət administrasiyasının dəstəyi ilə 2012-ci ildə təsis edilib.

Builki festivalda Moskva, Dağıstan və Kalmık Respublikasının nümayəndələri, habelə Xəzəryanı dövlətlərdən qonaqlar iştirak ediblər. Festivalda iştirak etmək üçün 300-dən çox müraciət daxil olub. Xüsusi komissiya həmin müraciətlərdən təqribən 120 nominant seçib. Qaliblər "Astraxan FM" xəbər portalının saytında ümumi onlayn-səsvermə yolu ilə müəyyən edilib.

Festivalda 31 nominasiya üzrə qaliblər seçilib: milli rəqslər üzrə ən yaxşı layihə, ən yaxşı ifaçı, ilin musiqi qrupu, musiqi sənəti sahəsində ilin kəşfi, ilin aparıcısı, ilin dizayneri, ilin gecə klubu və s.

2012-ci ildən keçirilən "Xəzər mükafatı" festivalı 2015-ci ildən beynəlxalq status alıb.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Ötən il respublikamızın cənub bölgəsində sosial-iqtisadi inkişaf baxımından ciddi uğurlar əldə olunub

*Bölgəyə daxil olan rayonlarda 2018-ci il ərzində əldə edilən nəticələr də deyilənləri təsdiqləyir*

Ölkəmizdə son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə olunub. Təbii ki, dinamik tərəqqi Azərbaycanın bölgələrini də əhatə edib, regionların sosial-iqtisadi inkişafı davamlı xarakter alıb. Eyni zamanda respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın icrası da yüksək səviyyədə təmin olunub. Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla isə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiqlənib. Yeri gəlmişkən dövlət başçısı cari il yanvarın 29-da keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizin inkişafı baxımından üçüncü Dövlət Proqramını yüksək qiymətləndirib: **“Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək”.**




Beləliklə, Azərbaycanda 2004-cü ildən etibarən böyük uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını artırmaqla yanaşı, hər bir rayonda əldə edilən uğurlarla müşayiət olunub. Və bu uğurlar 2018-ci ildə də davam edib. Bu məqamda vurğulamaq yerinə düşər ki, 2018-ci il respublikamızın cənub bölgəsi üçün də uğurlu olub. Bununla bağlı konkret faktlara keçməzdən öncə bildirək ki, cənub bölgəsi əsasən Lənkəran iqtisadi rayonunu əhatə edir. Lənkəran iqtisadi rayonu Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarının ərazisini əhatə etməklə Azərbaycanın cənub-şərqində yerləşir.

Beləliklə vurğulamaq yerinə düşər ki, regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən işlər və əldə edilən nəticələr Lənkəranda da özünü əyani şəkildə göstərir. Bu barədə Heydər Əliyev Mərkəzində keçirilən şəhər İcra Hakimiyyəti başçısı yanında şuranın geniş iclasında ətraflı məlumat verilib. Ötən ilin sosial-iqtisadi inkişafının yekunlarının və qarşıda duran vəzifələrin müzakirə edildiyi iclasda hesabat məruzəsi ilə çıxış edən şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov bildirib ki, 2018-ci ildə ölkəmizin hər yerində olduğu kimi, Lənkəran rayonunda da sosial-iqtisadi inkişaf uğurla davam edib. Qeyd olunub ki, dövlətimizin başçısının açılışında iştirak etdiyi Lənkəran Olimpiya İdman Kompleksi, xalça fabriki, Hirkan-Daşdatük-Biləsər avtomobil yolu, baxış keçirdiyi Lənkəran İstisu Sağlamlıq Mərkəzi, yeni istifadəyə verilmiş Qida Təhlükəsizliyi Agentliyinin Lənkəran Regional Sınaq Laboratoriyası, Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzi, “Lənkəran-2” Elektrik Yarımstansiyası ötən 15 ildə rayonun sürətlə artan iqtisadi potensialına növbəti töhfələr olub. Keçən il rayonda ümumi məhsul buraxılışı 1,1 faiz artaraq 450,9 milyon manata çatıb. Əvvəlki ilə nisbətən 2,6 faiz çox sənaye məhsulu istehsal olunub. Sənayedə çalışanların orta aylıq əməkhaqqı isə 306 manat təşkil edib.

Bəhs edilən dövrdə rayonda tikinti-quraşdırma işlərinə 129,8 milyon manat investisiya qoyulub. Əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 31,4 min kvadratmetr olan yeni yaşayış evləri tikilib istifadəyə verilib. Ötən il rayonda ümumilikdə 3360 yeni iş yeri açılıb. Bunun 2754-ü daimidir.

Məruzədə həmçinin rayonun yaşayış məntəqələrinin qazlaşdırılması, elektrik təsərrüfatının müasirləşdirilməsi, yeni su xətlərinin çəkilməsi istiqamətində görülən işlərdən də danışılıb.

Ötən il rayonda aqrar sahədə də işlərin uğurla davam etdiyini vurğulayan Taleh Qaraşov bu dövrdə 105,1 milyon manatlıq kənd təsərrüfatı məhsullarının istehsal olunduğunu, çəltikçiliyin inkişafına göstərilən dövlət qayğısının torpaq sahiblərində bu sahəyə marağı artırdığını bildirib. Diqqətə çatdırılıb ki, 2018-ci ildə rayonda 826 hektarda çəltik əkilib. Bu, əvvəlki illə müqayisədə 300 hektar çoxdur. 2019-cu ildə çəltik sahələrinin genişləndirilərək 1000 hektara çatdırılması nəzərdə tutulub. İstehsal olunan məhsulun emalı üçün müasir tipli üçüncü çəltik zavodu istifadəyə verilib. Sepradi kəndində sitrus bağlarının salınması, Osakücə kəndində çay plantasiyasının genişləndirilməsi əlavə iş yerlərinin də açılmasına səbəb olub.

Məruzədə həmçinin ənənəvi təsərrüfat sahələrinin dirçəldilməsi ilə bağlı Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar ötən ildən başlayaraq uzun fasilədən sonra ilk dəfə olaraq rayonda barama istehsalına başlanıldığı və 3,7 ton yüksəkkeyfiyyətli barama istehsal edildiyi vurğulanıb.

Ötən il Astara rayonunda da bütün sahələrdə nailiyyətlər qazanılıb. Rayonda iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsulların və əhaliyə göstərilən xidmətlərin ümumi dəyəri 204 milyon manat təşkil edib, il ərzində 1900 yeni iş yeri açılıb. Bu barədə Astara rayon İcra Hakimiyyətində keçirilən ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda danışılıb. Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayevin hesabat məruzəsində diqqətə çatdırılıb ki, 2018-ci ildə rayonun ictimai-siyasi həyatında ən əlamətdar hadisə oktyabrın 15-də Prezident İlham Əliyevin ölkəmizin cənub bölgəsinə növbəti səfəri çərçivəsində Astarada bir sıra sosial obyektlərin açılışında iştirak etməsi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü olub. Həmin səfərdən sonra Astarada sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması, Astara şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 204-207-ci kilometr hissəsinin, Astara çayı üzərində körpünün tikintisi məqsədilə Azərbaycan Prezidentinin imzaladığı sərəncamlar rayon sakinləri tərəfindən böyük razılıqla qarşılanıb.

Hesabat ilində rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilib. Belə ki, Astara şəhərindəki park-bulvar kompleksinin ərazisi genişləndirilərək 18 hektara çatdırılıb. Azərbaycan Prezidentinin Sərəncamına əsasən Taxtanəkəran-Toradi, Taxtanəkəran-Miki və Ojakəran-Təngərüd avtomobil yolu tikilərək istifadəyə verilib. Astara şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 48 mənzilli yaşayış binasının tikintisinə, Astaraçay və Pensərçayda sahilbərkitmə işlərinə başlanılıb, hazırda bu istiqamətdə işlər davam etdirilir.

Astara şəhərinə 29 kilometr məsafədən çəkilən magistral su kəməri isə gələcəkdə qəsəbə və kəndlərin su təchizatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Diqqətə çatdırılıb ki, Astarada aparılan quruculuq işləri rayonda turizmin inkişafı üçün geniş imkanlar açıb. Ötən il rayona gələn turistlərin sayı iki dəfə artıb.

Məruzə və çıxışlarda kənd təsərrüfatında görülmüş işlərdən, qazanılmış nailiyyətlərdən də ətraflı söhbət açılıb, mövcud problemlər müzakirə olunub.

2018-ci il Lerik rayonu üçün də uğurlarla yadda qalıb. Belə ki, ötən il Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ayrılmış 36,8 milyon manat vəsait hesabına rayonda 10 modul tipli və Orand kəndində 180 şagird yerlik məktəb binasının, 50 yerlik Noda kənd uşaq bağçasının, Lerik şəhərində 48 mənzilli binanın, 56 kilometrlik Lənkəran-Lerik və 27 kilometrlik Piran-Hamarat-Vıjaker avtomobil yolunun tikintisi, Veri kəndinə qaz xəttinin, Lerik şəhəri, Şingədulan, Sors, Molalan və Geskon kəndlərinə su xəttinin çəkilməsi işləri həyata keçirilib. Rayonda aparılan tikinti-quruculuq işləri 2019-cu ildə də davam etdiriləcək, bir sıra obyektlər istifadəyə veriləcək. Həyata keçirilən tədbirlər nəticəsində rayon üzrə 593 yeni iş yeri açılıb. Onlardan 225-i daimi, 368-i isə müvəqqətidir. Bu barədə Lerik rayon Mədəniyyət Mərkəzində keçirilən 2018-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş hesabat yığıncağında ətraflı məlumat verilib.

Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən Lerik rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov görülən işlərdən geniş bəhs edib. Ötən il ölkəmizin bütün bölgələrində olduğu kimi, Lerik rayonunda da sosial-iqtisadi inkişaf sahəsində uğurlu nəticələrin qazanıldığını vurğulayan R.Bağırov 2018-ci ildə rayonun ictimai-siyasi həyatında ən yaddaqalan hadisənin oktyabrın 15-də Prezident İlham Əliyevin Lerikə növbəti səfərinin olduğunu bildirib. Dövlətimizin başçısının Lerik rayonunun iqtisadiyyatının inkişafına, infrastrukturun qurulmasına, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş sosial obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri ilə görüşü, rayonun gələcək inkişafı ilə bağlı imzaladığı sərəncamlar sakinlər tərəfindən böyük razılıqla qarşılanıb.

**(davamı növbəti sayımızda)**

**Nardar BAYRAMLI**

# Azərbaycan dövləti milli azlıqların hüquqlarının təminatı sahəsində mühüm nailiyyətlər əldə edib

*VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi layihəsi iştirakçıları Azərbaycandakı mədəni müxtəliflik haqqında məlumatlandırılıb*





Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları” adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi layihəsi fevralın 19-da Xaçmazda davam etdirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, dünyanın 16 ölkəsinin aparıcı universitetlərində təhsil alan tələbələrin cəlb olunduğu layihənin iştirakçıları əvvəlcə “Milli kimliyin formalaşmasında mədəni müxtəlifliyin rolu” mövzusunda mühazirə dinləyiblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanov söylədiyi mühazirədə bildirib ki, Azərbaycanda milli kimliyin əsas qatlarını ölkəmizdə yaşayan müxtəlif xalqların adət-ənənələri, dili, dini təşkil edir. Bu baxımdan mədəni müxtəliflik azərbaycanlının həm fərdi, həm də sosial kimliyinin özəyidir. Aparılan araşdırmalar göstərir ki, loyallığı gücləndirən əsas faktorlardan biri də, müxtəlif xalqlara aid mədəniyyətin qorunub saxlanılması istiqamətində aparılan siyasətdir. **“Azərbaycan nümunəsində biz bu loyallığı müxtəlif millətlərin nümayəndəsinin vətənimizin ərazi bütövlüyü uğrunda canını fəda etməsində, müxtəlif dinlərin nümayəndələrinin qarşılıqlı anlaşma şəraitində fəaliyyətində, vətənin həm xoş, həm də pis günündə həmrəy olmalarında görürük. Buna nümunə kimi Şəhidlər xiyabanını və sinaqoqun tikilməsində müsəlman icmasının maddi dəstək göstərməsini qeyd edə bilərik. Bütün bunlar bütov azərbaycanlı kimliyinin məhəng daşıdır”,** - deyə Rəfi Qurbanov bildirib.

Azərbaycan dövləti ardıcıl və düzgün milli siyasət yeridib, milli azlıqların hüquqlarının təminatı sahəsində mühüm nailiyyətlər əldə edib. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, milliyyətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib.

Mühazirədən sonra layihə iştirakçıları Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevlə görüşüblər. Ş.Xanbabayev Xaçmazın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Xaçmaz rayonu geniş turizm imkanlarına görə seçilən rayonlardandır. Buranı parklar və muzeylər şəhəri adlandırırlar. Bununla yanaşı, Xaçmaz ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Görüşdən sonra layihə iştirakçıları Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Qonaqlar Xaçmaz Dövlət Rəsm Qalereyası, Bayraq Meydanı Kompleksi və Çənlibel parkında gəziblər.

Beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in “Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi” layihəsinin məntiqi davamıdır. Layihə çərçivəsində hazırda dünyanın 19, Azərbaycanın isə 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Azərbaycan, Gürcüstan, Çexiya, Almaniya, Serbiya, Hindistan, Bosniya və Herseqovina, Avstriya, Yaponiya, İspaniya, Tacikistan, Yunanıstan, Portuqaliya, Rusiya, Bolqarıstan, San Tome və Prinsipi Demokratik Respublikası və Braziliyadan tələbələrin cəlb olunduğu layihə çərçivəsində fevralın 23-dək Quba, Qusar, Xaçmaz rayonlarında və Bakı şəhərində bir sıra tədbirlər keçiriləcək.

# “Nar” sosial şəbəkələrdən abunəçilərinə operativ müştəri xidmətləri göstərir

Ölkənin ən gənc mobil operatoru olan “Nar” abunəçilərinə Çağrı Mərkəzləri, nar.az internet səhifəsi ilə yanaşı, sosial media vasitəsilə də yüksəkkeyfiyyətli və operativ müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlərin 30%-ə qədəri 1 dəqiqə, 60%-ə qədəri isə 10 dəqiqə ərzində cavablandırılır. Ümumilikdə, “Nar”-ın bütün sosial şəbəkələrindən daxil olan sorğularına ortalama 6 dəqiqə ərzində cavab verilir. Son 1 il ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə abunəçilər tərəfindən 218 mindən çox müraciət daxil olub.

Qeyd edək ki, “Nar” sosial şəbəkələr üzərindən tam müştəri xidməti göstərən ilk telekommunikasiya şirkətidir. Mobil operatorun abunəçiləri hər hansı sual yarandıqda çağrı mərkəzinə getmədən, alternativ olaraq mobil operatorun sosial media səhifələrində də yüksəkkeyfiyyətli xidmətdən (balans haqqında məlumat, şəbəkə/internet çətinliklərinin aradan qaldırılması, “Nar”-ın xidmətləri, tarifləri, internet paketləri haqqında ərtaflı məlumat, nömrələr üzərində əməliyyat, gələn mesajlar haqqında ətraflı məlumat, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s.) yararlana bilirlər. Belə ki, “Nar” abunəçiləri “Facebook”, “Twitter” və “Instagram”, eyni zamanda, elektron poçt və onlayn-çat vasitəsilə öz suallarını ünvanlayır və qısa müddət ərzində mobil operatorun sosial media komandası tərəfindən cavab alırlar. Bununla da abunəçilər vaxtlarına qənaət edərək istənilən zaman və məkanda “Nar” məhsul və xidmətlərinə dair sorğularına ətraflı cavab ala bilirlər.




Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

# Azercell IV Buktreyler Festivalının əsas tərəfdaşıdır

*Kitabı tanıdın, kitabla tanının!*




Ölkəmizdə hər zaman innovativ ideyalara, bir çox layihələrə dəstək verən şirkət kimi tanınan Azercell IV Buktreyler Festivalının əsas tərəfdaşıdır. Festivalın məqsədi kitab və mütaliənin cəmiyyətimizdə təbliği, eləcə də mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafıdır. Yaşından asılı olmayaraq hər bir kəs sevdiyi Azərbaycan müəllifinin əsərinə buktreyler çəkib, onu festivalın rəsmi internet səhifəsində (www.booktrailer.az) qeydiyyatdan keçirməklə yarışmada iştirak edə bilər. Festivalın təşkilati dəstəkçiləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasıdır.

Bu ilki IV Buktreyler Festivalı iştirakçılar üçün bir yenilik təqdim edir. Belə ki, layihənin əsas tərəfdaşı olan ölkənin lider operatoru Azercell şirkəti “Ən Yaxşı Mobil Buktreyler” nominasiyası üzrə 1.000 AZN pul mükafatı ayırmışdır. Hər bir kəs istədiyi buktreyleri mobil telefona çəkib, bu nominasiya üzrə festivala müraciət etməklə 1.000 AZN məbləğində mükafat qazanmaq şansını əldə edə bilər.

Bir iştirakçı tərəfindən təqdim olunan buktreylerin sayına məhdudiyyət qoyulmur. İştirak şərtləri və tələbləri haqda məlumatı www.booktrailer.az rəsmi internet səhifəsindən və ya https://www.facebook.com/BooktrailerFest/ Facebook səhifəsindən əldə etmək olar. Həmçinin yaranmış bütün suallarla bağlı festival2019@booktrailer.az email ünvanına müraciət etmək mümkündür.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi tərəfindən 1-ci yerin qailibi 1000 AZN, 2-ci yerin 2 qalibi 800 AZN, 3-cü yerin 3 qalibi 500 AZN dəyərində mükafat qazanacaq. Mobil telefonla buktreyler çəkmiş qalibi isə Azercell şirkəti tərəfindən “Ən Yaxşı Mobil Buktreyler” nominasiyası üzrə 1.000 AZN pul mükafatı gözləyir.

Buktreylerlərin son qəbul tarixi 1 aprel, 2019-cu ildir.

## İTMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin (Hüquqşünaslıq ixtisası) tələbəsi Kərimova Ləman İlqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU